YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
26 sentyabr 2026-cı il, şənbə
№ 175 (7242)
Qiyməti 60 qəpik



Milli azadlıqdan şirin nemət yoxdur!

# Azərbaycan Asiya ilə Avropa arasında mühüm bağlantı həlqəsinə və qapıya çevrilib



Bax səh. 3



# 27.09.2020-ci il saat 06.00... Böyük Zəfər Yolunun ilk günü

Bax səh. 3

## Meydan savaşımız - "Qorxutmadı bizləri yollardakı əngəl"

Bax səh. 4

## Sosial-iqtisadi inkişafa dair yeni Strategiya hazırlanıb

### Böyük Qayıdışa dair II Dövlət Proqramı layihəsi dövlət başçısına təqdim olunub



Bax səh. 4

## İcma: Ermənistanın dövlət məsuliyyətini və cinayətlərini danması siyasəti iflasa məhkumdur

Bax səh. 6

### Çin-Azərbaycan əməkdaşlığı genişlənir

Bax səh. 5

### Strateji mineral ehtiyatlarının mənbəyi

Bax səh. 5

### Ərdoğandan mühüm çağırışlar...

Bax səh. 6

### 3 il sonra... 3 günlük...

Bax səh. 7



### Nyu-Yorkda ABŞ-İran müzakirələri...

Bax səh. 7

### Növbəti raund olacaqmı?



Bax səh. 6



# Azərbaycan Asiya ilə Avropa arasında mühüm bağlantı həlqəsinə və qapıya çevrilib

## 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun iştirakçılarına

**Hörmətli Forum iştirakçıları!**

Sizi 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda səmimi-qəlbdən salamlayıram.

Bu Forumun dünyanın müxtəlif ölkələrindən hökumətləri, beynəlxalq təşkilatları, maliyyə institutlarını, aparıcı şirkətləri, investorları və biznes dairələrini bir daha Bakıda bir araya gətirməsi dərin məmnunluq doğurur.

Builki Forumun mövzusu - "Parçalanmış dünyada etimadın bərpası: Cənubi Qafqaz qlobal əlaqəliliyin və investisiya sabitliyinin dayağı kimi" - bu gün xüsusilə aktualdır. Qlobal iqtisadi mühitlər sürətlə dəyişir, təchizat zəncirləri yenidən formalaşır, yeni nəqliyyat, enerji və texnoloji əlaqələr yaranır. Belə bir şəraitdə sabitlik, əlaqəlilik və etibarlı tərəfdaşlıqlar investisiyalar üçün getdikcə daha böyük əhəmiyyət kəsb edir. Cənubi Qafqazda bərqərar olmaqda olan sülh regional əməkdaşlıq, əlaqəlilik, ticarət və investisiyalar üçün yeni imkanlar yaradır, eyni zamanda daha dərin iqtisadi inteqrasiya və diversifikasiyaya dəstək verir.

Azərbaycan iqtisadiyyatı qlobal qeyri-müəyyənlik və geosiyasi çağırışlar fonunda yüksək dayanıqlıq nümayiş etdirmişdir. İqtisadiyyatın şaxələndirilməsi strateji hədəflərimizin əsasını təşkil edir və qeyri-neft sektoru iqtisadi artımın əsas hərəkətverici qüvvəsinə çevrilmişdir. 2020-ci ildən etibarən qeyri-neft sektorunda real ÜDM artımı orta hesabla ildə 5 faiz təşkil etmiş, qeyri-neft sənayesi 1,5 dəfə artmış, qeyri-neft ixracı isə təxminən iki dəfə yüksəlmişdir. Nəticədə 2025-ci ildə qeyri-neft sektorunun ÜDM-də payı 72 faizə çatmışdır.

Bu dinamika sabit və proqnozlaşdırıla bilən biznes mühitinə əsaslanır. Ölkəmizdə təmin edilmiş makroiqtisadi sabitlik, investisiyaların qorunması və əlverişli sahibkarlıq mühiti investorların uzunmüddətli etimadı üçün möhkəm zəmin yaradır. Azərbaycanın strateji coğrafi mövqeyi, nəqliyyat-logistika imkanları, iqtisadi zonalarda yaradılmış müasir infrastruktur, vergi və gömrük güzəştləri, habelə dövlət-özəl tərəfdaşlığı mexanizmləri və tərəfdaş ölkələrlə təsis edilmiş birgə investisiya fondları investorlara dayanıqlı layihələrdə iştirak etmək və bütün regiona texnologiya, kapital və təcrübə gətirən tərəfdaşlıqlar qurmaq üçün geniş imkanlar açır.

Ölkəmizin qlobal strateji tərəfdaşlıqları və qeyri-neft sektoruna artan xarici investisiyalar emal sənayesi, ticarət, enerji, rəqəmsal transformasiya, süni intellekt və qabaqcıl texnologiyalar kimi sahələrdə qlobal dəyər zəncirlərinə daha dərin inteqrasiyaya yol açır.

Bu müsbət meyillər beynəlxalq reytinq agentlikləri tərəfindən də etiraf olunmuşdur. "Fitch" və "Moody's" agentlikləri Azərbaycanın suveren kredit reytinqlərini investisiya səviyyəsinə yüksəltmiş, növbəti dövr üzrə proqnozu müvafiq olaraq "sabit" və "müsbət" kimi qiymətləndirmişdir. Maliyyə dayanıqlığımız 2025-ci ilin sonunda ÜDM-in 110 faizini ötmüş strateji valyuta ehtiyatlarımızla da bir daha təsdiqlənir.

Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan Asiya ilə Avropa arasında mühüm bağlantı halqasına və qapıya çevrilmişdir. Orta Dəhliz Mərkəzi Asiyanı Xəzər dənizi vasitəsilə Cənubi Qafqaz, Türkiyə və Avropa ilə birləşdirir; formalaşmaqda olan Zəngəzur dəhlizi - TRIPP əlaqəlilik marşrutu kimi də tanınır - isə Azərbaycanın regional mərkəz rolunu daha da gücləndirəcək və bütün Avrasiya məkanında ticarət, investisiya və sənaye əməkdaşlığı üçün yeni imkanlar yaradacaqdır.

Azərbaycan getdikcə daha çox ölkə üçün etibarlı enerji tərəfdaşıdır. Baxışımız enerji təchizatından kənara çıxaraq yaşıl enerji dəhlizlərinin inkişafını da əhatə edir ki, bu da bərpa olunan enerjinin regional bazarlara inteqrasiyasına və Azərbaycan, geniş Cənubi Qafqaz, Mərkəzi Asiya və Avropa arasında əlaqəliliyin möhkəmlənməsinə imkan verir.

Ənənəvi enerji sektoru ilə yanaşı, Azərbaycan emal sənayesi, nəqliyyat və logistika, bərpa olunan enerji, rəqəmsal texnologiyalar, kənd təsərrüfatı və qida emalı, turizm, infrastruktur və digər yüksək əlavə dəyərli sahələrdə, o cümlədən işğaldan azad edilmiş ərazilərdə yaranan bərpa və inkişaf imkanları da daxil olmaqla, mühüm imkanlar təklif edir. Qabaqcıl texnologiyalar gətirən, məhsuldarlığı artıran, ixtisaslı iş yerləri yaradan və regional və qlobal dəyər zəncirlərinə inteqrasiyamızı gücləndirən layihələrə xüsusi önəm verilir.

Müasir infrastruktur, sənaye parkları, Ələt Azad İqtisadi Zonası və dövlət-özəl tərəfdaşlığı mexanizmləri belə əməkdaşlıq üçün möhkəm zəmin yaradır. Biz bu alətləri təkmilləşdirməyə və investorlara uzunmüddətli layihələri əminliklə həyata keçirməyə imkan verən şərait yaratmağa davam edəcəyik.

İnvestisiyalara yanaşmamız yalnız kapital cəlb etməklə məhdudlaşmır. Biz texnologiyanı, təcrübəni, innovasiyanı və yeni bazarlara çıxışı yüksək qiymətləndirir, investorlar üçün dayanıqlı dəyər yaradan, eyni zamanda Azərbaycan iqtisadiyyatının modernləşməsini və rəqabətqabiliyyətliliyini gücləndirən tərəfdaşlıqlara üstünlük veririk. 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu bu tərəfdaşlıqların inkişafı üçün mühüm platformadır.

1-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun nəticələri Azərbaycana artan marağı aydın şəkildə nümayiş etdirdi. Ötən il ümumi dəyəri 10 milyard ABŞ dollarından çox olan investisiya sazişləri imzalanmış, bunun 7 milyardan çoxu qeyri-neft sektorunun payına düşmüşdür.

Bu il iştirakçıların coğrafiyası daha da genişlənmiş, beynəlxalq institutlar, investorlar və aparıcı şirkətlər daha geniş şəkildə təmsil olunmuşdur ki, bu da həm Azərbaycana olan etimadı, həm də geniş regionun artan iqtisadi əhəmiyyətini əks etdirir. Ümid edirəm ki, 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində beynəlxalq investorlar və tərəfdaş şirkətlərlə mühüm investisiya layihələrinə start veriləcəkdir.

Əminəm ki, Bakıdakı müzakirələr konkret təşəbbüslərə və uzunmüddətli əməkdaşlığa təkan verəcək, regionda iqtisadi əlaqələrin möhkəmlənməsinə, əlaqəliliyin artmasına və ümumi rifaha töhfə verəcəkdir.

2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumuna uğurlar, bütün iştirakçılara səmərəli müzakirələr və qarşılıqlı faydalı tərəfdaşlıqlar arzulayıram.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 24 sentyabr 2026-cı il**

# Bakıdan zəng



Sentyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstanın Baş naziri İrakli Kobaxidzeyə zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, Prezident İlham Əliyev İrakli Kobaxidzeni ad günü münasibətilə təbrik edib, ona cansağlığı və fəaliyyətində uğurlar, həmçinin gürcü xalqına rifah arzulayıb.

Gürcüstanın Baş naziri göstərilən diqqətə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Telefon danışığı zamanı ölkələrimiz arasında mövcud strateji tərəfdaşlıq və mehriban qonşuluq əlaqələrinin inkişafına dair fikir mübadiləsi aparılıb.

# Azərbaycan Prezidenti İlham Əliyev Tacikistanın Baş nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Tacikistanın Baş naziri Koxir Rasulzodanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanla Tacikistanın dost və qardaş ölkələr olduğunu deyən Prezident İlham Əliyev ikitərəfli əməkdaşlığın potensialının daha da inkişafı üçün yaxşı imkanların mövcudluğunu bildirdi, əlaqələrimizin genişləndirilməsində özünün Tacikistana, Tacikistan Prezidentinin isə Azərbaycana səfərlərinin, həmçinin müxtəlif səviyyələrdə digər qarşılıqlı səfərlərin əhəmiyyətinə toxundu.

Prezident İlham Əliyev Koxir Rasulzodanın ölkəmizə səfərinin gündəlikdə duran məsələlərin, o cümlədən nəqliyyat-logistika, qarşılıqlı iqtisadi fəaliyyət, ticarət dövriyyəsinin artırılması ilə bağlı müzakirələrin aparılmasına imkan yaratdığını dedi.

Qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən Koxir Rasulzoda Tacikistan Prezidenti Emoməli Rəhmonun salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarının Tacikistan dövlətinin başçısına çatdırılmağı xahiş etdi. Dövlətimizin başçısı Emoməli Rəhmonla Azərbaycanda və Tacikistanda, həmçinin beynəlxalq tədbirlər çərçivəsində görüşlərini və söhbətlərini məmnunluqla xatırladı.

Qonaq Tacikistanın Azərbaycanla dostluq və strateji tərəfdaşlıq münasibətlərini yüksək qiymətləndirdiyini vurğulayaraq, hər iki ölkənin prezidentlərinin güclü siyasi iradəsi və etimada əsaslanan dialoq sayəsində əməkdaşlığımızın yeni inkişaf mərhələsinə qədəm qoyduğunu dedi. Baş nazir bu xüsusda Azərbaycan və Tacikistan prezidentlərinin 2024-cü ildə Bakıda imzaladıqları "Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə"ni xatırladı.

Koxir Rasulzoda əlaqələrimizin genişlənməsində Prezident İlham Əliyevin şəxsi töhfəsini vurğuladı.

Baş nazir Azərbaycanın "ASAN xidmət" modelinin əhəmiyyətinə toxunaraq, onun Tacikistanda tətbiqi ilə bağlı maraqlarını ifadə etdi.

Söhbət zamanı Tacikistan mallarının Orta Dəhliz vasitəsilə Azərbaycan ərazisindən tranzit keçməklə beynəlxalq bazarlara çıxarılması, metallurgiya, energetika, kənd təsərrüfatı sahələrində əməkdaşlıq məsələlərinə toxunuldu.

Xalqlarımızın tarixi əlaqələri vurğulanaraq ortaq kökləri bölüşdüyü qeyd olundu. Bu xüsusda mütəmadi əsasda qarşılıqlı mədəni-humanitar və idman tədbirlərinin keçirilməsinin vacibliyi bildirildi.

Tacikistanın Baş naziri Azərbaycan tərəfindən tacikistanlı tələbələr üçün ayrılan kvotalara görə təşəkkür etdi.

Azərbaycan və Tacikistanın böyük turizm potensialına malik olduğu vurğulanaraq Bakı və Düşənbə arasında birbaşa aviareysin açılmasının əhəmiyyətinə toxunuldu, turizm və sərnişindaşıma sahəsində artım məmnunluqla qeyd olundu. Ölkələrimizin turizm imkanlarının təqdim olunması üçün müxtəlif tədbirlərin keçirilməsinin əhəmiyyəti vurğulandı.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu, ikitərəfli münasibətlərin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# "Neuberger Berman" şirkətinin sədri və baş icraçı direktoru Prezident İlham Əliyevin qəbulunda



Sentyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünyanın aparıcı investisiya şirkətlərindən olan "Neuberger Berman"ın sədri və baş icraçı direktoru Corc Volkeri qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Prezident İlham Əliyevin keçən il Nyu-Yorkda Corc Volkerlə görüşü məmnunluqla xatırlandı.

Dövlətimizin başçısı bu ilin fevralında "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalandığını xatırladaraq, ölkələrimizin qarşılıqlı münasibətlərinin yeni səhifəsinin açıldığını dedi.

Görüşdə Azərbaycan ilə "Neuberger Berman" şirkəti arasında investisiya əməkdaşlığının mövcud vəziyyəti və perspektivləri müzakirə olundu, qlobal investisiya bazarlarında yaranan yeni imkanlar, qarşılıqlı maraq doğuran layihələr və uzunmüddətli tərəfdaşlığın genişləndirilməsi ətrafında fikir mübadiləsi aparıldı.

2016-cı ildən Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) ilə "Neuberger Berman" arasında səmərəli əməkdaşlığın həyata keçirildiyi vurğulandı. ARDNF-nin şirkətlə özəl kapital, özəl borc və digər investisiya istiqamətlərini əhatə edən tərəfdaşlığı çərçivəsində əldə olunmuş nəticələr və yeni layihələrdə iştirak imkanları müzakirə edildi.

Qeyd edək ki, 1939-cu ildə Nyu-Yorkda yaradılmış "Neuberger Berman" dünyanın iri müstəqil investisiya şirkətlərindən biridir. 613 milyard ABŞ dolları məbləğində aktivlərə malik olan şirkətin özəl bazarlar üzrə qlobal investisiya platforması 170 milyard ABŞ dollarından artıq investisiya öhdəliklərini idarə edir. Platformanın investisiya etdiyi fondların portfelləri 10 min 400-dən çox şirkəti əhatə edir ki, bu da "Neuberger Berman"ın qlobal investisiya fəaliyyətinin miqyasını göstərir.

# İlham Əliyev "Brookfield Asset Management" şirkətinin baş icraçı direktorunu qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də dünyanın aparıcı investisiya şirkətlərindən olan "Brookfield Asset Management"in baş icraçı direktoru Konnor Teskini qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısının bu ilin yanvarında Davosda Konnor Teski ilə görüşü məmnunluqla xatırlandı. Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) ilə "Brookfield Asset Management" arasında imzalanmış uzunmüddətli strateji əməkdaşlığa dair niyyət protokolunun əhəmiyyəti qeyd edildi.

Görüşdə ölkəmizlə şirkət arasında investisiya əməkdaşlığının genişləndirilməsi, xüsusilə enerji keçidi, bərpaolunan enerji, enerji saxlanc sistemləri və rəqəmsal infrastruktur sahələrində potensial layihələr müzakirə olundu. Azərbaycanın enerji potensialının ölkəmizin regional enerji mərkəzi kimi mövqeyinin möhkəmləndirilməsi baxımından əhəmiyyətinə toxunuldu.

Xatırladaq ki, idarə etdiyi aktivlərin həcmi 1 trilyon ABŞ dollarını ötən "Brookfield" qlobal miqyasda enerji, telekommunikasiya, rəqəmsal infrastruktur, nəqliyyat və digər real aktivlərin iri sahibi və operatorlarından biridir. Şirkətin infrastruktur platforması 308 mindən çox telekommunikasiya obyektini, 77 min kilometr fiber-optik şəbəkəni, 150 data mərkəzini, 36 min 300 kilometrlik dəmir yolu şəbəkəsini və 3200 kilometr ödənişli avtomobil yolunu əhatə edir. Onun kommunal infrastruktur biznesləri dünyada 10 milyondan çox istehlakçıya xidmət göstərir.

# İlham Əliyev "Global Infrastructure Partners" şirkətinin rəhbərini qəbul edib

Sentyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aktivlərin idarə edilməsi üzrə dünyanın aparıcı şirkətlərindən biri olan "BlackRock"un tərkibində fəaliyyət göstərən qlobal infrastruktur investisiya şirkəti - "Global Infrastructure Partners"in (GIP) təsisçisi, sədri və baş icraçı direktoru Adebayo Oqunlesini qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısının bu ilin yanvarında Adebayo Oqunlesi ilə Davosda görüşü xatırlandı.

Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF), "BlackRock" və "Global Infrastructure Partners" (GIP) şirkəti arasında Davosda imzalanmış uzunmüddətli əməkdaşlığa dair niyyət protokolunun əhəmiyyətinə toxunuldu.

Görüşdə Azərbaycan ilə şirkət arasında investisiya əməkdaşlığının inkişafından məmnunluq ifadə edildi, əldə olunmuş nəticələr və tərəfdaşlığın genişləndirilməsi perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikası Dövlət Neft



Fondu (ARDNF) ilə "Global Infrastructure Partners" (GIP) arasında formalaşmış tərəfdaşlığın artıq konkret beynəlxalq investisiya layihələrini əhatə etdiyi vurğulandı. Bu xüsusda Fondun İtaliyanın yüksəksürətli qatar operatoru "Italo"ya və Londonun Qatvik hava limanına bu şirkətlə birgə investisiya yatırdığı qeyd olundu.

Ölkəmizin infrastruktur sahəsində investisiya imkanları, o cümlədən rəqəmsal və nəqliyyat infrastrukturu istiqamətlərində potensial əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

Söhbət zamanı Prezident İlham Əliyevin himayəsi altında Bakıda təşkil olunan İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu və bu çərçivədə Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) və "BlackRock" şirkətinin birgə təşkilatçılığı ilə keçirilən Azərbaycan İnfrastruktur İnvestisiya Dialoqunun əhəmiyyətinə toxunuldu. Bu tədbirlərdə 30 trilyon ABŞ dolları məbləğində aktivləri idarə edən şirkətlərin iştirak etdiyi vurğulandı.

Qeyd edək ki, "Global Infrastructure Partners" şirkəti 2024-cü ildən dünyanın ən böyük investisiya idarəetmə şirkəti olan "BlackRock"un tərkibində fəaliyyət göstərir. İdarə olunan aktivlərinin həcmi 15,3 trilyon ABŞ dolları təşkil edən "BlackRock" enerji, nəqliyyat, rəqəmsal infrastruktur, su və tullantıların idarə olunması sahələrində ixtisaslaşmış qlobal investisiya şirkətidir. "Global Infrastructure Partners"in (GIP) idarə etdiyi aktivlərin həcmi isə 170 milyard ABŞ dollarıdır. Bu şirkət, həmçinin "BlackRock", "Microsoft" və "MGX" ilə birlikdə qlobal Süni İntellekt İnfrastruktur Fondunun əsas təsisçilərindəndir.

# 27.09.2020-ci il saat 06.00...
# Böyük Zəfər Yolunun ilk günü

Sentyabrın 27-də Azərbaycanda Anım Günü qeyd edilir. Düz altı il bundan əvvəl - 2020-ci il 27 sentyabr tarixində xalqımız sübhü müharibə xəbəri ilə açdı. Səhər saat 6:00-da Silahlı Qüvvələrimiz Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin göstərişi ilə əvvəlcə "Dəmir yumruq" adlandırılan, sonra isə Vətən müharibəsi kimi davam etdirilən genişmiqyaslı əks-hücum əməliyyatına başlamışdı.

## Düşmən cəzalandırılmalı idi və cəzalandırıldı!

Müharibə uzun çəkmədi - cəmi 44 gün ərzində düşmənin bütün hərbi birləşmələri tar-mar edildi və 2020-ci il noyabrın 10-da Ermənistan onun üçün tam kapitulyasiya anlamına gələn üçtərəfli bəyanatı imzalamaq məcburiyyətində qaldı.

Vətən müharibəsi qısa zaman kəsiyində başa çatsa da, qazanılan Qələbə böyük məna daşıyır. Müharibənin nəticələrinə uyğun olaraq Azərbaycan otuz ildən sonra ərazi bütövlüyünə nail oldu. Bu, son 200 illik tariximizin ən böyük Zəfəri idi. Bundan başqa, Vətən müharibəsində qazanılan Zəfər sonrakı qələbələrimizə yol açdı. 2023-cü il sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror əməliyyatında daha bir böyük Zəfərə imza atdıq - Xankəndidə və digər yaxın yaşayış məntəqələrində nəzarəti ələ keçirməklə, separatizmə son qoymaqla ölkəmizin suverenliyinə nail olduq. Hazırda aylı-ulduzlu Azərbaycan Bayrağı Xankəndi, Şuşa, Xocalı da daxil olmaqla suveren Azərbaycanın bütün ərazilərində əzəmətlə dalğalanaraq dünya azərbaycanlılarına sonsuz qürur hissi yaşadır.

Bu böyük qələbələr şəhidlərimizin canı-qanı hesabına əldə olunub. Onlar heç vaxt unudulmayacaq, ruhları hər zaman azad Vətənin göylərində dolaşacaq. Biz əziz şəhidlərimizin xatirəsini daim minnətdarlıq hissi ilə anacağıq. Xatırladaq ki, Prezident İlham Əliyev 2 dekabr 2020-ci il tarixində "Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında" Sərəncam imzalayıb. Həmin sənədə əsasən hər il sentyabrın 27-si ölkəmizdə Anım Günü kimi qeyd edilir.





## Müharibə nə üçün başladı?

Bu müharibə bizim üçün ədalətli müharibə idi. Ötən əsrin doxsanıncı illərinin əvvəllərində Ermənistan havadarlarının dəstəyi və respublikamızdakı çətin vəziyyətdən sui-istifadə etməklə torpaqlarımızın 20 faizini işğal altına almışdı və burada separatçı rejim qurmuşdu. Bu işğal nəticəsində bir milyondan artıq azərbaycanlı doğma ev-eşiyini tərk etmək və ağır məcburi köçkünlük taleyi yaşamaq məcburiyyətində qalmışdı. Onlar, çadırlara, qəzalı tikililərə sığınmışdılar. Bu, əsl humanitar fəlakət idi.

Ərzilərinin zəbt olunmasına, bir milyondan artıq vətəndaşının məcburi köçkün vəziyyətinə düşməsinə rəğmən, Azərbaycan üç onillik ərzində münaqişənin sülh yolu iilə həllinə nail olmaq istədi və bu məqsədlə də ATƏT-in Minsk formatında aparılan danışıqlarda yüksək fəallıq ortaya qoydu.

İşğalçı Ermənistanın davranışları isə adekvat deyildi və müharibəni qaçılmaz edirdi. Bunun da əsas səbəbi Ermənistanın üç onillik ərzində danışıqlar prosesində formal olaraq iştirak etməsi və işğalçılıq siyasətindən geri çəkilmək istəməməsi idi. Ermənistanın işğal illərində törətdiyi müharibə cinayətləri hər kəsə bəllidir. Beynəlxalq təşkilatların ikili standartlar nümayiş etdirmələri, cəzasızlıq mühiti işğalçı ölkəni, necə deyərlər, daim yeni təxribatlara və yeni müharibə cinayətlərinə ruhlandırırdı. 27 sentyabr 2020-ci il ərəfəsində belə təxribatların miqyası daha da genişlənmişdi. Beynəlxalq hüquq normalarına arxa çevirən işğalçı dövlətin rəhbərliyi vaxtilə zor gücünə zəbt edilən bütün torpaqları qondarma "DQR"ə aid etməyə çalışır, bir qarış torpağın belə Azərbaycana qaytarılmayacağını bəyan edirdi. Bu ölkənin baş naziri Nikol Paşinyan "Qarabağ Ermənistandır və nöqtə" deməklə bütün danışıqlar prosesinə zərbə vurmuş və onu mənasız etmişdi. Bunlar azmış kimi, Ermənistan Azərbaycanı "yeni torpaqlar uğrunda yeni müharibə" ilə hədələməyə başlamışdı. 2020-ci ilin iyul ayında heç bir səbəb olmadan iki ölkə arasındakı dövlət sərhədinin Tovuz rayonu istiqamətində mövqelərimiz, dinc sakinlər və mülki infrastruktur erməni hərbi birləşmələri tərəfindən qəfil artilleriya atəşinə tutuldu. Avqust ayında işğalçı dövlət respublikamıza diversiya qrupu göndərdi. Bundan başqa, Şuşada qondarma rejimin başçısı özünə "andiçmə mərasimi" keçirir, Ermənistanın baş naziri Şuşada, Cıdır düzündə rəqs edir, qondarma "DQR"in parlamentinin Şuşaya köçürülməsi ilə bağlı planlar qurulurdu, işğal altındakı ərazilərimizdə qanunsuz məskunlaşma aparılırdı...

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri növbəti dəfə genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub. Müdafiə Nazirliyinin mətbuat xidmətinin məlumatında bildirilirdi ki, düşmən tərəfindən Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərinin intensiv atəşə tutulması nəticəsində mülki əhali arasında həlak olan və yaralananlar olub. Mülki infrastruktur obyektlərinə ciddi ziyan dəyib.

Azərbaycanın seçim imkanı qalmamışdı. Beləliklə, Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatı başlaması barədə qərar verilib.

## Müharibənin birinci günü - Azərbaycan dövləti mühüm qərarlar verdi

Müharibənin birinci günündə Azərbaycan dövləti tərəfindən yaranmış vəziyyətə adekvat olan mühüm qərarlar verilib. Belə ki, sentyabrın 27-də Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib. Dövlətimizin başçısı iclasda çıxış edib. Çıxışında Azərbaycan Silahlı Qüvvələrinin əks-hücum əməliyyatlarının başlamasına aydınlıq gətirən dövlətimizin başçısı bizim mübarizəmizin haqq mübarizəsi olduğunu və xalqın Ordunu dəstəklədiyini diqqətə çatdırıb.

Müharibənin ilk günündə Prezident İlham Əliyev ölkədə "Hərbi vəziyyət elan edilməsi haqqında" Fərman imzalayıb. Elə həmin gün Milli Məclisin iclası keçirilib. İclasda Milli Məclis "Hərbi vəziyyət elan edilməsi haqqında" Azərbaycan Prezidentinin Fərmanının təsdiq edilməsi barədə qərar qəbul edib.

Müharibənin birinci günündə Prezident İlham Əliyev xalqa müraciət ünvanlayıb. Müraciətində keçmiş təmas xətti boyunca törədilən təxribatları erməni faşizminin növbəti təzahürü kimi dəyərləndirən dövlətimizin başçısı qarşı tərəfə sərt mesajlarını çatdırıb. Təxribatların düşmən üçün ağır nəticələr vercəyini bəyan edən dövlətimizin başçısı vurğulayıb: "Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır".

Müharibənin birinci günündə qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın dövlətimizin başçısına zəng etməsi də böyük mənəvi-siyasi önəm daşıyır. Bu zəng bir daha təsdiqlədi ki, haqq-ədalət müharibəsinə başlayan Azərbaycan tək deyil, onun arxasında Türkiyə kimi güclü dövlət dayanır. Bu, bizim özümüzə inam hissimizi daha da gücləndirdi.




## Xalqın dövlətlə sıx həmrəyliyi

Müharibə ölüm-itim, qan-qada, göz yaşları, nisgil, ana fəryadı, talelərin pozulması, puça çıxan ümidlər deməkdir. Ancaq təzada bir baxın. Altı il bundan əvvəl sübh tezdən gələn müharibə xəbərini eşidən hər bir azərbaycanlı göz yaşlarını saxlaya bilməyərək "o gün gəldi, nəhayət, başladı" deyə öz-özünə pıçıldadı. Bu, ümummilli bir əhval-ruhiyyə idi. Əlinə silah alıb döyüşlərə gedəcək gənc də, oğlunu cəbhəyə yola salacaq ana-ata da, barmağında nişan üzüyü daşıyan, sevgi həsrəti çəkəcək qızlar da eyni hissləri keçirirdilər. Yaşanacaq fəsadlara, ağrı-acılara rəğmən, cəmiyyətimizin müharibə ovqatına köklənməsi isə təsadüfi deyildi. Bu, qəfil başlayan yox, gözlənilən bir müharibə idi. Hər bir azərbaycanlı otuz il idi ki, düşmən tapdağında qalan torpaqların nisgilini qəlbinin başında daşımışdı, Şuşa, Xankəndi, Xocalı, Laçın, Kəlbəcər, Ağdam xəyalları bir an da olsun bizləri tərk etməmişdi. Qanadlanan ruhumuz daim o yerlərdə gəzib dolaşırdı. Buna görə də müharibənin başlaması xəbəri heç kəsi sarsıtmadı, əksinə bizləri cəsarətləndirdi, hər birimizi daxilən ön xəttə, Ordumuza yardıma səfərbər etdi. Bu, bütövlükdə Azərbaycan cəmiyyətinin yüksək vətənpərvərliyinin bariz ifadəsi idi.

Müharibənin ilk günündən Azərbaycan xalqı Prezidentə, Ordumuza güclü dəstək nümayiş etdirdi. Sentyabrın 27-də xarici ölkələrdə yaşayan azərbaycanlılar bəyanat yayıblar. Qeyri-hökumət təşkilatlarının qəbul etdikləri müraciətdə vətəndaş cəmiyyəti təsisatlarının təmsilçiləri Ali Baş Komandanımızın və Ordumuzun yanında olduqlarını bildiriblər. Eyni zamanda, 500-dən çox QHT beynəlxalq təşkilatlara müraciət ünvanlayıb. Həmin gün Azərbaycanda fəaliyyət göstərən 50 siyasi partiya Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatına dair birgə bəyanat yayıblar. TŞ-nın iclasındakı çıxışında cəmiyyətimizdəki yüksək həmrəyliyə diqqət çəkən dövlətimizin başçısı vurğulayıb: "Qtiyyətlə deyə bilərəm ki, - bu gün səhər mən bütün bölgələrdən, cəhbəyanı bölgələrdən məlumat almışam, - Azərbaycan vətəndaşları cəsarət göstərirlər, hər kəs öz yerindədir, ordumuza, dövlətimizə hər an dəstək verməyə hazırdırlar və bunu edirlər".

## Ön xətdən gələn ilk qələbə müjdələri

Otuz il ərzində Azərbaycan sülh danışıqlarında fəal iştirak etməklə yanaşı, həm də güclü, müasir ordu quruculuğunu daim diqqət mərkəzində saxlamışdı. Bunun nəticəsi olaraq respublikamızda istənilən vəzifəni yerinə yetirməyə qadir olan Silahlı Qüvvələrimiz formalaşmışdı.

Ordumuzun üstünlüyü, şəxsi heyətin peşəkarlığı və yüksək vətənpərvərliyi elə ilk gündən özünü göstərdi. Belə ki, ön xətdən qələbə müjdələri müharibənin birinci günündən gəlməyə başladı. Müdafiə Nazirliyinin rəsmisi polkovnik-leytenant Anar Eyvazov sentyabrın 27-də keçirilən brifinqdə bildirib ki, əks-həmlə əməliyyatı həyata keçirən Azərbaycan Ordusu bölmələrinin zərbələri nəticəsində düşmən çoxlu sayda zirehli texnikanı döyüş meydanında qoyaraq qaçıb. Ermənistan qoşunlarının məhv edilən, eləcə də ərazidə qalan hərbi texnikalarının videogörüntüləri ictimaiyyətə təqdim olunub.

Müharibənin birinci günüdə Ordumuzun cəbhənin Goranboy rayonu istiqamətində keçirdiyi hərbi əməliyyat nəticəsində Murov dağı silsiləsindəki Murov zirvəsinin azad olunması ilə Azərbaycanın işğal altındakı ərazilərini Ermənistanla birləşdirən hərbi əhəmiyyətli Vardenis-Ağdərə avtomobil yolu vizual, eləcə də atıcı silahların və artilleriya vasitələrinin atəş nəzarətinə götürülüb. Əldə edilən hərbi üstünlük Ermənistandan əlavə hərbi yüklərin işğal altında olan Kəlbəcər və Ağdərə istiqamətindəki marşrutla daşınmasının qarşısını almağa imkan verib.

Eyni zamanda, cəbhənin Füzuli-Cəbrayıl istiqamətində hərbi əməliyyatlar nəticəsində uzun illər ərzində düşmən işğalındakı Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdurrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri azad edilib. Bundan əlavə, Ağdərə rayonu istiqamətində və Murov dağı silsiləsindəki hündürlüklərdə yerləşən düşmən postları darmadağın edilərək, bir sıra hakim yüksəkliklər nəzarətə götürülüb.

## Ölkənin ərazi bütövlüyü hərbi-siyasi yolla bərpa edildi

Azərbaycan Ordusu 44 gün ərzində dünya hərb tarixində bir yeniliyə imza atdı. İgid əsgər və zabitlərimiz "Arxada Vətəndir!" deyib hər gün irəli getdilər. Ön xətdən daim qələbə soraqları gəlirdi, hər gün yeni şəhərlərimiz, kəndlərimiz işğaldan azad olunurdu. Rəsmi İrəvanın təsdiqlədiyi statistikaya əsasən müharibədə Ermənistan tərəfində təxminən 12 min fərari qeydə alınıb. Erməni əsgərlərinin, zabitlərinin döyüş meydanına atılmaları üçün motivasiyaları yox idi. Çünki onlar özgə torpaqlarında döyüşlərə cəlb edilmişdilər. Buna görə də mövqelərini, sursatlarını qoyub qaçırdılar. Azərbaycan hərbiçilərinin isə amalı düşmən tapdağında olan ərazilərimizi işğaldan azad etmək idi. Onlar Vətən müharibəsində qəhrəmanlıq tarixi yazdılar, Vətənə sədaqət nümunəsi göstərdilər. Vətən müharibəsi və lokal xarakterli antiterror əməliyyatları keçirilərkən bizim 3200-dən çox qəhrəman övladımız şəhadət zirvəsinə ucalıb. Bütövlükdə, Vətən uğrunda İkinci Qarabağ müharibəsində 90 mindən çox gənc azərbaycanlı könüllü iştirak edib.

Ordumuzun peşəkarlığının, yüksək döyüş qabiliyyətinin, hərbiçilərimizin göstərdikləri misilsiz qəhrəmanlıqların nəticəsi olaraq düşmən cəmi 44 gün ərzində bütünlüklə kapitulyasiyaya məruz qaldı. Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olundu. Döyüşlərdə əldə edilən qələbənin siyasi müstəvidə davam etdirilməsi nəticəsində 44 günlük Vətən müharibəsindən sonrakı 20 gün ərzində 3 rayon - noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın bir güllə atılmadan Azərbaycana təhvil verildi. 2022-ci avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bununla da üçtərəfli bəyanata uyğun olaraq, Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşdı və Azərbaycan ərazi bütövlüyünün təmin edilməsinə hərbi-siyasi yolla nail oldu.

Şübhəsiz ki, Azərbaycan xalqının birliyi, iradəsi, dövlətin gücü qələbəmizin əsas şərtidir. Tarixi Qələbəmizi yüksək dəyərləndirən Prezident İlham Əliyev vurğulayıb: "Azərbaycan xalqı güclü iradə, birlik göstərərək 30 il davam edən işğala son qoydu. Azərbaycan dövləti öz gücünü göstərdi, xalqımız isə bütün dünyaya öz əyilməz ruhunu göstərmişdir".

## Tarixi Qələbədən Böyük Qayıdışa

Otuz illik işğal dövrü torpaqlarımızda kədərli izlər qoyub. Bir vaxtlar çiçəklənən şəhərlər, kəndlər dağıdılıb, hər şey talan edilib, hətta santexnika avadanlıqları belə Ermənistana daşınıb. Dağıntıların miqyası o dərəcədə böyükdür ki, sanki buradan sivilizasiya görməmiş vəhşi tayfalar gəlib keçiblər və öz yollarında qarşılarına çıxan hər şeyi məhv ediblər. Budur erməni xalqının "mədəni" siması!

Azərbaycan xalqı isə qurub-yaradan xalqdır. Müharibədən sonra Ermənistan mətbuatında iddia olunurdu ki, Azərbaycanın işğaldan azad olunan əraziləri bərpa etməyə gücü çatmayacaq və yaxud buna onilliklər lazım gələcək. Ancaq güclü və məsuliyyətli Azərbaycan dövləti belə təsəvvürləri alt-üst etdi. Prezident İlham Əliyevin göstərişləri əsasında azad ərazilərin bərpasına İkinci Qarabağ müharibəsi başa çatandan dərhal sonra start verildi. Tarixi qələbədən sonra ölkəmiz Böyük Qayıdışa hədəfləndi.

Qalib Azərbaycan azad ərazilərin bərpasında da dünyaya nümunə göstərir. Hazırda Böyük Qayıdışa dair I Dövlət Proqramı uğurla tamalanmaq üzrədir və yeni belə proqram da artıq hazırdır. Son altı ildə bu ərazilərdə otuz illik işğalın kədərli nəticələrinin aradan qaldırılması, infrastruktur quruculiuğu, yaşayış məntəqələrinin bərpası və məskunlaşdırılması istiqamətində böyük iş həcmi yerinə yetirilib. Qarabağ yenidən dirçəlir. Artıq 40 mindən çox keçmiş azərbaycanlı məcburi köçkün Qarabağa qayıdıb və daha çoxu da qayıdacaq. Bu, böyük qürurdur. 2020-ci ildən etibarən 45-dən çox yaşayış məntəqəsi yenidən qurularaq keçmiş məcburi köçkünlərin istifadəsinə verilib. Hazırda Qarabağda təxminən 93 min mülki şəxs yaşayır, işləyir və təhsil alır.

*Mübariz ABDULLAYEV*

# Meydan savaşımız - "Qorxutmadı bizləri yollardakı əngəl"

Dəyərli yazıçı, özü də şəhid atası olan Sabir Əhmədli "Axirət sevdası" əsərində yazırdı ki, "Hər şey yerini alacaq. Dağılmış şəhərlər, kəndlər yenidən qurulacaq, əzəlkindən də abad olacaq. Qaçqın-köçkün yurda qayıdacaq. Bircə şəhidlər qayıtmayacaq. Onlar biryolluq köçüblər".

Böyük bir acı olsa da, həqiqətdir. Amma bu yerdə həm də Alber Kamyunun fikrini xatırlamadan ötə bilmirəm: "Yalnız azadlıq uğrunda ölməyin mənası var. Çünki bu zaman insan inanır ki, o, heç zaman ölmür"!

Bütün yaşayan, əbədi diri qalan şəhid ruhlarına salam olsun!

***

Böyük zəfəri bizə qazandıran 44 günlük müharibənin başlandığı nöqtədir 27 sentyabr. Azad olunan Qarabağ, fəth olunan Şuşa, işğalçıdan təmizlənən Vətən torpağı! Xəyallarımızın gerçəkləşdiyi möhtəşəm 2020-ci il! Bu bir il ərzində bizə "yuxu əhvalı" kimi görünən zəfər müjdəmizin bəlkə də ən ağlasığmaz tərəfi budur: 30 ilin həsrət alovunun 44 gün məcrasında bitməsi... Güclü, təşkilatlanmış müzəffər ordu, azadlıq amalını uca tutan, məfkurə sevdasına sığınıb meydana atılan Vətən oğulları! Böyük Hadinin dediyi zaman yetişmişdi:



*Qorxutmamalı bizləri*
*yollardakı əngəl,*
*Məfkurəyə doğru yürü, qoş,*
*durma, çapuq gəl!*
*Millət tikəcək namına ölsən*
*dəxi heykəl,*
*Qoyma toxuna yurduna*
*naməhrəm olan əl.*
*Bizlərdə bu gün olmalı*
*bir məqsədi-əkməl,*
*Bir məqsədi-əkməl və*
*bir ümmidi-mübəddəl.*
*Amalımıza doğru*
*şitaban olalım, gəl,*
*Millətlə vətən rahinə*
*qurban olalım, gəl!*

Yazıçı İlqar Kamilin 44 günlük müharibəyə həsr etdiyi "9-cu mərtəbə və ya Muradın iztirabları" əsərindəki daim zəfər nidasına köklənmiş, bu yolda ölümü belə gözə almış, son əzmi və gücü ilə təğyiri-libas olub vətənə can nisar etməyə hazır olan qəhrəmanlar: "...ya Allah, çox şükür, bu gün də dayanmadıq! Biz Şəms sevdasına yola çıxmışıq, abi! Biz əlisilahlı Rumilər artıq yalançı xoş xəbər deyil, Şəmsin özünü istəyirik".

Elə dünyanın gözləri önünə sərdikləri Müharibə obrazı da apardıqları savaşın mahiyyətinə uyğun oldu: daha humanist, mərd, əxlaqlı, dəyərləri itirmədən yaşanan müharibə mənzərəsi və həqiqəti!

***

27 sentyabr başlanğıc üçün bir an idi. Amma nəzərə alanda ki, bura gətirən yolun məfkurə mücadilələri, ideoloji savaşları zaman-zaman Ali Baş Komandan İlham Əliyevin dövləti təfəkkür, siyasi səriştə və intellekt miqyasının gücü sayəsində daim diri qalmışdı, fəhm etmək o qədər də çətin olmaz. O anın gəlişini gerçəkləşdirən əməllər sırası var tarixdə və yüzillər keçsə də, tarix hər zaman bu gerçəklərin üslubunda danışacaq bizimlə. Hansı gerçəklər?

İlham Əliyevin 2008-ci ildə Bakıda İstiqlal Bəyannaməsini abidələşdirməsi, Azərbaycanda türk qanlı, islam imanlı, Avropa fikirli bayrağımız üçün Bayraq meydanlarını qurması, 2018-ci ili Azərbaycanda "Cümhuriyyət ili" elan etməsi onun beynəlxalq siyasi platformasının mükəmməl humanitar təməlləri kimi böyük əməl cizgiləri kəsb eləyir. Qələbəmizin genetik kodlarını daşıyan bu sıranı istənilən qədər artırmaq olar. Əlimərdan bəy Topçubaşovun Parisdəki məzarının ziyarətgah halına gətirməsi, Məhəmməd Əmin Rəsulzadənin, Əlimərdan bəy Topçubaşovun, Fətəli Xan Xoyskinin, böyük ideoloq, bayrağımızdakı triadanın müəllifi Əli bəy Hüseynzadənin ölkə miqyasında və dövlət səviyyəsində yubileylərinin keçirilməsinə, Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasının nəşrinə rəvac verməsi də həmin humanitar düşüncə strategiyasının gerçəkləri sırasındadır. Bunlar Prezident İlham Əliyevin fikir həyatımızda oynadığı müstəsna məqamlardır. Ümummilli lider Heydər Əliyevin varisi olaraq bir mühüm qaydanı dərindən bilirdi İlham Əliyev: millət öz istiqlalını qoruduğu müddətdə içindəki hürr duyğusu sönmür. Buna görə nə qədər gərəkli idi bu fərmanlara imza atmaq! Xalqa istiqlal təlimi ilə aşılanan yurd sevgisini ötürüb lazımı anda onu milli varlığımızın xilası hərəkatında orduya çevirmək!

***

Millət olmağın, bütöv yaşamağın yaddaşda və amalda keçdiyi yolun müxtəlif mərhələləri olur. 1990-cı illərdə bir xalq olaraq bu yolu Ümummilli lider Heydər Əliyevlə keçdik. O mərhələ ki, görünməmiş mənəvi, əxlaqi-siyasi deqradasiyadan sonra xilaskar kimi yetişib zamanın ahəngi ilə mənəvi-əxlaqi dəyərlərin sabitliyi arasında harmoniya yaratmışdı. Son otuz ilə yaxın dövrdə dünyada çox şey məhvərindən çıxdı: texnogen sivilizasiya özünü tükətdi, qlobal zor və şər stixiyası, anti insani düşüncə meydan suladı, irqçi fəlsəfələr, vulqar qərbçi "humanizm" oyunları, məzhəbçi müharibələr kamalın təntənəsinin heç bir nəticə verməyəcəyinin sübutu oldu. Gözəllik dünyanı xilas etmədi, elm bəhrə vermədi, kamal qalib gəlmədi.

Belə bir qlobal və geopolitik maraqların toqquşduğu seysmik zonada, antitəbiət və antiinsani dünya kultunun hakimi-mütləq olduğu bir zamanda, üstəlik Qarabağ kimi problemə az qala apokalipsis baxışın gücləndiyi bir dönəmdə toparlanıb millətimizin taleyində tarixi bir dönüşə imza atmaq İlham Əliyevin siyasi səriştəsinin, dövləti təfəkkürünün və intellektinin ifadəsi idi. O, hər cür süni, qondarma qanun və stereotiplərin, perspektivdən məhrum bəyanatların qarşısına milli müqəddəratın meyarını qoydu. Bütövlüyünü qanı ilə qazanmağa layiq Orduya, milli miqyasda düşüncə və təşkilati iş vüsətinə sahib olduğu dünyaya təqdim etdi. Müstəqillik mentaliteti və statusunu həmişə uca tutub qoruyan Ali Baş Komandan İlham Əliyevin bu gün dünyanın gözü qarşısında nümayiş etdirdiyi məğrur lider obrazı isə onun məqsəd və mövqeyinə real-əməli mündəricə qazandıran əsas rəmzlərdən oldu.

***

Milli-xroniki və tarixi anomaliyaya çevrilmiş erməni məkrinin klassik modeli bu illər ərzində heç dəyişmədi. Son yüz ildə dəfələrlə qabaran bu məkrin fəsadları - ardınca gətirdiyi bəlalar, qan və göz yaşları aramsız oldu. Həm də ona görə oldu ki, yaddaşdan nəticə çıxara bilmədik. Əsrin sonunda yenə eyni ssenari, eyni təcavüz və işğal prosesləri. 30 ilə yaxın aciz bir durumda buraxılıb gözləmə mövqeyi seçməyə məhkum edilmiş bizlər! Əvəzində, dəfələrlə pozulan atəşkəs, öldürülən uşaqlar, əsgərlər, dağıdılan yurd yerləri! Nəhayət, ard-arda qalibiyyət nidamız! Aprel döyüşləri, Lələtəpə qalibiyyəti, Tovuz hadisələri! Bitib-tükənməyən ittihamlar, yalanlar, atəşkəsin dəfələrlə pozulması və s. bizim üçün səbrin sonu, onlar üçün sonun başlanğıcı oldu.

***

44 günlük savaş bütün mənalarda Vətən müharibəsi oldu. Millət kükrəyən emosiyası, əsgərlər fədai ruhu, Ali Baş Komandan səriştə və diplomatik əzmi ilə meydanda idi. Ölkədəki siyasi partiyalar da bu ali məram ətrafında ilk dəfə idi ki, birləşmişdi. M.Ə.Rəsulzadənin müstəqilliklə bağlı təmsil eydiyi siyasi təmayülə münasibətdə həssaslıqla ifadə etdiyi belə bir fikri var: "Azərbaycan dövri-istiqlalına bolşeviklər müsavat dövrü deyirlər. Fəqət xalq bu dövrə Azərbaycan dövrü deyir".

Bəli, 44 günlük müharibə də bizim üçün ayrılıqda hansısa partiyanın deyil, onların birgəliyinin gücündən hasilə gələn Azərbaycan dövrüdür. Yalnız ölkə daxilində deyildi bu birlik. Bütün türk dünyası bu savaşda yanımızda idi. Bu qələbə türk milli şüurunun qələbəsi idi. İlham Əliyev Müzəffər orduya ancaq qələbə sonucunu simvolizə edən bir hökmü bəyan edib onu irəli ruhlandırmışdı: "Qarabağ Azərbaycandır"! Bu hökmdən sonra nidanı əsgər qoymalı idi. Qoydu da.

***

Bu 44 gündə Azərbaycan öz bütövlüyünü qanı ilə qazanmağa layiq orduya, milli miqyasda düşüncə və təşkilati iş vüsətinə sahib olduğunu dünyaya sübut etdi. Müstəqillik mentaliteti və statusunu hər zaman qoruyan Ali Baş Komandan İlham Əliyevin dünyanın gözü qarşısında nümayiş etdirdiyi məğrur lider obrazı isə onun məqsəd və mövqeyinə real-əməli mündəricə qazandıran əsas rəmzlərdən oldu. Bu Müzəffər Liderliyi türk tarixinə iz salmış, onun coğrafiyasından tutmuş mənəvi ərazilərin vəhdətinə qədər bütöv silsilə yaradan, hünər meydanında ad çıxaran, türk intibahının yaranmasında misilsiz rol oynayan fatehlərin milli taleyin iştirakındakı əvəzsiz xidmətləri ilə eyni müştərək müstəvidə kəsişdirmək olar.

1918-ci ildə qazandığı müstəqilliyini qoruya bilməyən Azərbaycan neçə onilliklər sonra yenidən istiqlalına qovuşdu, Azərbaycan beynəlxalq arenada tanındı, rəhbəri dünya liderləri ilə bir araya gəldi. 30 il əvvəl torpaqlarını itirən Azərbaycan altı il əvvəl, 44 günlük müharibə ilə ərazi bütövlüyünü, üç il əvvəl isə birgünlük antiterror əməliyyatları nəticəsində suverenliyini bərpa etdi. Bütün bu qələbələr ilk növbədə, bütövlük amalına sadiqliklə, bütün təzahürlərində bu amala sadiq qalmaqla qazanıldı. Diqqət eləsək görərik ki, Ümummilli lider Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi bütün zaman kəsimlərində Azərbaycan idealını tam vurğusu ilə qoruyub yaşada biləcəyi qutsal anlayışa çevirmişdir. Onun yolunu ləyaqətlə davam etdirən İlham Əliyev də energetik passionarlıqla həm tarixi-kulturoloji, həm də hərbi-siyasi kontekstdə həmin idealı tarixin ən dramatik və xaotik dalğalarından zədəsiz çıxarmağa müvəffəq oldu. Ən yeni Azərbaycanın modeli, onun modern fəlsəfəsinin idrakı addım-addım gedilən bu yolların üfüqündə idi. Qafqazın nüvəsindən qalib dövlət kimi doğulan Azərbaycan indi Ali Baş Komandanın əzmi ilə özünü yenidən yaratmaqla, qurmaqla, dünyanın qlobal siyasət meydanında fundamental strateji mövqeyi ilə görünməklə yeniliklərə imza atmaqdadır. Bu, artıq öz tarixinin və taleyinin sahibi olan ölkə liderinin açdığı meydan savaşıdır. Türkün böyük şairlərindən olan Niyazi Yıldırım Gənçosmanoğlu demiş, "dövlət mənim, ordu mənim, yurd mənim"!

Bu fərqli nizam və rakurslarla, cəsarət və düşüncə dalğası ilə yeni siyasi və milli-mənəvi arxitekturanın əsası qoyulacağı mütləqdir!



*Elnarə AKİMOVA,*
*Milli Məclisin deputatı,*
*YAP İdarə Heyətinin üzvü,*
*filologiya elmləri doktoru*

# Sosial-iqtisadi inkişafa dair yeni Strategiya hazırlanıb

## Böyük Qayıdışa dair II Dövlət Proqramı layihəsi dövlət başçısına təqdim olunub



Sentyabrın 24-də keçirilmiş İqtisadi Şuranın iclasında "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı" layihələri müzakirə olunub. Şuranın sədri, baş nazir Əli Əsədov bildirib ki, hər iki strategiya sənədinin layihəsi üzərində son tamamlama işləri aparılıb və layihələr dövlət başçısına təqdim olunub.

Adıçəkilən dövlət sənədlərində ölkəmizin ötən illərdə əldə etdiyi sosial-iqtisadi nailiyyətlərin davamlı şəkildə artırılması, bunun üçün özəl, o cümlədən birbaşa xarici investisiyaların cəlb edilməsinin genişləndirilməsi, biznes mühitinin əlverişliliyinin yüksəldilməsi, iqtisadiyyatın bilik və texnologiya tutumunun gücləndirilməsi, həmçinin işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın davamlılığının təmin edilməsi üçün uyğun siyasət və islahat istiqamətləri müəyyən edilib.

## Strateji valyuta ehtiyatları 91 milyard dollara çatıb

Azərbaycanın dayanıqlı iqtisadi inkişaf kursuna diqqət çəkən baş nazir bildirib ki, qlobal risklərə baxmayaraq cari ilin ötən dövründə ölkəmizdə makroiqtisadi və maliyyə sabitliyi təmin olunub, əsas makroiqtisadi göstəricilərimiz dayanıqlıdır. Ümumilikdə, neft-qaz sektoru üzrə hasilatın və artım tempinin azalması şəraitində iqtisadi artım təmin olunub. 2026-cı ilin yanvar-avqust aylarında ÜDM real ifadədə 1,2 faiz artıb, o cümlədən, qeyri neft-qaz ÜDM-nin real artımı 2,1 faiz təşkil edib, əsas kapitala yönəldilmiş investisiyalar 10 faiz çoxalıb, inflyasiya isə 5,7 faizə bərabər olub.

Hazırda ölkəmizin strateji valyuta ehtiyatları təxminən 91 milyard dolları təşkil edir. Bu göstərici xarici dövlət borcunu 20 dəfəyə yaxın üstələyir. Birbaşa xarici dövlət borcumuzun səviyyəsi 1 sentyabr tarixinə 4,5 milyard dollar olmaqla proqnoz ÜDM-in 5,6 faizini təşkil edir. 2026-cı ilin 8 ayında xarici ticarət balansının müsbət saldosu 10 milyard dollarından çox olub.

Hökumətin 2026-cı il üzrə yenilənmiş makroiqtisadi proqnozlarına əsasən, qlobal miqyasda iqtisadi artımla və enerji daşıyıcılarının qiymətləri ilə bağlı gözləntilər fonunda cari ildə ölkə iqtisadiyyatı 1-2 faizlik artım tempi nümayiş etdirəcək. Proqnozlara görə, 2026-cı ilin sonunda ÜDM-in real ifadədə artımı 1,7 faiz olmaqla 138 milyard manata çatacağı fərz edilir. Qeyri-neft ÜDM-nin real ifadədə artımı 3,1 faiz olmaqla 100 milyard manata çatacağı gözlənilir. Yəni, ilin əvvəli ilə gözləntidə tikinti və turizm sektoru üzrə nəzərdə tutulandan aşağı artım templərinin fərz olunması ÜDM-in cüzi azalmasına səbəb olacaq. Bunun nəticəsində əvvəlki proqnoza nisbətən qeyri-neft-qaz sektoru üzrə ÜDM-in real artım tempi 5 faizdən 3,1 faizə enəcəyi ehtimal olunur. Ancaq bütün bunlara baxmayaraq ölkədə ilin sonunda yaradılacaq əlavə dəyərin 74-75 faizi qeyr-neft mənbələrinin üzərində cəmləşəcək. Bu, qeyri-neft sektorunun yenə də iqtisadi-fiskal bölmələrinin əsas drayveri olacağını yəqinləşdirir.

## 2030-cu ildə qeyri-neft ÜDM-nin 138,6 milyard manata çatacağı gözlənilir

Beynəlxalq təşkilatların ərzaq və əmtəə qiymətləri ilə bağlı proqnozları, manatın məzənnəsinin sabitliyi və valyuta bazarının tarazlığı nəzərə alınmaqla növbəti ildə orta illik inflyasiyanın 5,3 faizə düşəcəyi və hədəf diapazonda olacağı proqnozlaşdırılır. Yeni ssenariyə əsasən, 2026-cı ilin sonuna dövlət büdcəsinin gəlirlərinin 39 milyard 365 milyon manat təşkil edəcəyi gözlənilir. Büdcə gəlirlərinin 43,4 faizi və ya 17 milyard 85 milyon manatı neft-qaz sektorunun, 56,6 faizi və ya 22 milyard 280 milyon manatı isə qeyri-neft-qaz sektorunun payına düşür. İlin əvvəlində təsdiq olunmuş göstəricilərlə müqayisədə neft-qaz sektoru üzrə gəlirlərdə 650 milyon manat və 4 faiz, qeyri-neft-qaz sektoru üzrə gəlirlərdə isə 106 milyon manat və ya 0,5 faiz artım gözlənilir.

Əli Əsədov qeyd edib ki, qarşıdakı 4 ilin sosial-iqtisadi inkişaf strategiyasına əsasən, qeyri-neft-qaz sektorunun orta illik artım tempinin 5,1 faiz olacağı gözlənilir. 2027-ci ildə ÜDM-in tərkibində qeyri-neft sektorunun payının 78,7 faizə, neft-qaz sektorunun payının isə 21,3 faizə bərabər olacağı proqnozlaşdırılır. Dəyər ifadəsi ilə qeyri-neft ÜDM-nin gələn il 109,1 milyard manata, 2028-ci ildə 118,3 milyard manata, 2029-cu ildə 128,1 milyard manata, 2030-cu ildə isə 138,6 milyard manata çatacağı fərz edilir. 2030-cu ildə ÜDM-in tərkibində qeyri-neft-qaz sektorunun payının 82 faizə çatacağı gözlənilir.

## Azad ərazilərdə quruculuğun yeni mərhələsi

Azad edilmiş ərazilərdə hazırda icra edilən Birinci Dövlət Proqramı çərçivəsində təhlükəsiz yaşayışın və dövlət idarəetməsinin təşkili, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisi və infrastruktura təmini, əhalinin geri qayıdışı və ərazilərdə dayanıqlı icmaların yaradılması, ərazilərin inkişafına və reinteqrasiyasına dəstək göstərən strateji əhəmiyyətli və əhatəli infrastrukturun qurulması, dayanıqlı məskunlaşma üçün ərazilərin iqtisadiyyatının yerli və xarici dəyər zəncirinə inteqrasiyası, ekoloji mühitin yaxşılaşdırılması və ekoloji təmiz texnologiyaların tətbiqi istiqamətində işlər yekunlaşmaqdadır.

Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərə bu günə qədər 47 yaşayış məntəqəsinə, yeni 10 şəhər, 3 qəsəbə və 34 kəndə keçmiş məcburi köçkünlərin qayıdışı təmin edilib. Azad edilmiş ərazilərdə hazırda 93 mindən çox insan yaşayır, çalışır və təhsil alır. Ümumilikdə, 2020-ci ildən bəri 2026-cı il də daxil olmaqla işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün dövlət büdcəsindən 25 milyard manatdan çox vəsait ayrılıb.

2026-cı ilin sonunadək işğaldan azad edilmiş ərazilərdə ümumilikdə 280 min hektar ərazinin minalardan təmizlənməsi planlaşdırılır. Proqram çərçivəsində 34500 mənzil və fərdi yaşayış evi inşa ediləcək, 197 məktəbəqədər və ümumi təhsil müəssisəsi, 8 peşə təhsili və 1 orta ixtisas təhsili müəssisəsi tikiləcək istifadəyə veriləcək. İlin sonunadək işğaldan azad edilmiş ərazilərdə ümumilikdə 26 avtomobil yolu layihəsi başa çatdırılacaq. Ərazilərdəki yaşayış məntəqələrində "ASAN Xidmət" və "DOST" mərkəzləri yaradılacaq, 49 Ailə Sağlamlıq Mərkəzi və 39 tibb məntəqəsi tikiləcək.

2026-cı ilin sonuna qədər "Böyük Qayıdış" proqramının I mərhələsinin tamamlanacağı və bu mərhələdə 140 min insanın Qarabağ və Şərqi Zəngəzura qayıdacağı planlaşdırılır. Bütövlükdə "Böyük Qayıdış" proqramının birinci mərhələsində bütün azad olunmuş şəhərlər də daxil olmaqla, 100 yaşayış məntəqəsinin yenidən qurulması və məskunlaşdırılması nəzərdə tutulur.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı" isə yeni hədəfləri nəzərdə tutur. Strategiyaya əsasən, bu ərazilərdə infrastruktur və kommunikasiyaların daha da genişləndirilməsi, yeni inşa ediləcək yaşayış sahələrinə davamlı köçürülmənin təmin edilməsi, insanların mülkiyyət hüququnun tanınması nəzərdə tutulub. Bu kurs üzrə "İşğaldan Azad Edilmiş Ərazilərdə Daimi Məskunlaşma Fondu" yaradılacaq. Bölgədə dayanıqlı məşğulluq, iş yerlərinin yaradılması, ailə təsərrüfatları və biznes layihələrinin miqyasının artırılması və digər çoxistiqamətli tədbirlər nəzərdə tutulur.

*E.CƏFƏRLİ*



# Çin-Azərbaycan əməkdaşlığı genişlənir

## İkitərəfli münasibətlərin inkişafı regional və qlobal səviyyədə yeni iqtisadi imkanları səfərbər edir

Çinin Azərbaycandakı səfiri Lu Mey Çin Xalq Respublikasının yaradılmasının 77-ci ildönümünə həsr olunmuş qəbulda iki ölkə arasında siyasi, iqtisadi, ticari, nəqliyyat əlaqələrinin inkişafının dayanmadan inkişaf etdiyini bildirib. Səfir qeyd edib ki, Çin və Azərbaycan suverenliyin, müstəqilliyin və ərazi bütövlüyünün müdafiəsi məsələlərində həmişə bir-birini dəstəkləyir, həmçinin qarşı tərəfin seçdiyi inkişaf yoluna hörmətlə yanaşır. Praktiki əməkdaşlıq münasibətləriin möhkəm təməlini təşkil edir. Çin Xalq Respublikasının Sədri Si Cinpinin və Azərbaycan Prezidenti İlham Əliyevin strateji rəhbərliyi sayəsində bizim yüksəksəviyyəli əməkdaşlıq dövlətlər arasında qarşılıqlı etimad, bərabərlik və dostluq tərəfdaşlığı nümunəsi kimi çıxış edir.

Diplomat vurğulayıb ki, Azərbaycan və Çin arasında nəqliyyat-logistika əməkdaşlığının inkişafında Orta Dəhliz mühüm istiqamətlərdən biri kimi yer tutur. "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Azərbaycanla əməkdaşlıq xalqlara əməli fayda gətirir.

Lu Mey gələcəkdə iki ölkə arasında iqtisadi və digər sahələrdə mövcud imkanlardan istifadə edilməsi sayəsində əməkdaşlığın daha da genişlənəcəyinə, ticarət və investisiya həcmlərinin rekord göstəricilərə çatacağına əminliyini ifadə edib. Logistika sahəsində potensiallar ən yüksək səviyyəyə çatacaq. Belə ki, Azərbaycan və Xəzər dənizindən keçən Çin-Avropa dəmir yolu ekspresi vasitəsilə daşımaların həcmi cari ildə 2 dəfə artacaq və bu dinamika növbəti illərdə rekord rəqəmlərlə müşayiət olunacaq.



Azərbaycan və Çin strateji tərəfdaş, iqtisadi imkanlar və əlaqələr baxımından ən yaxın dövlətlərdir. Çin Asiyanın və dünyanın iqtisadi güc mərkəzlərindən biri,

### Strateji tərəfdaş, regionun liderləri

Azərbaycan isə Cənubi Qafqaz regionunda söz sahibi, liderdir. Siyasi-iqtisadi amillər, nəqliyyat-tranzit qovşaqları, geosiyasi amillər və digər mühüm faktorlar hər iki ölkənin bir sıra ortaq baxış və strateji maraqlarını tamamlayır. Prezident İlham Əliyevin Çinə səfərləri, habelə bu ölkənin hökumət heyətlərinin respublikamıza səfərləri dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi və dərinləşdirilməsinə səbəb olub. Hökumət üzvlərinin, iqtisadi qurumlarının və biznes icmalarının qarşılıqlı səfərləri və əldə edilən razılaşmalar iqtisadi-ticari münasibətləri daha da irəliyə aparıb. Tərəflər arasında imzalanmış yeni sazişlər, o cümlədən qarşılıqlı vizasız gediş-gəlişi haqqında sənədin qüvvəyə minməsi münasibətləri yeni yüksək mərhələyə çatdırıb.

Azərbaycan və Çin arasında iqtisadi-ticarət dövriyyəsi son 10 ildə ən yüksək səviyyəyə çatıb. Belə ki, 2015-ci ildə isə qarşılıqlı mal dövriyyəsinin həcmi 500 milyon dollar idisə, 2024-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi əvvəlki illə müqayisədə 20,7 faiz artıb və 3,744 milyard dollar təşkil edib. Çin Azərbaycanın 4-cü ən böyük ticarət tərəfdaşına çevrilib, onun xarici ticarət dövriyyəsində payı 7,9 faiz olub, həmçinin idxal üzrə də lider mövqeyinə çıxıb və bu göstərici 17,69 faizə çatıb. 2025-ci ildə bu rəqəm 4,8 milyard dollara yüksəlib. 2026-cı ilin yanvar-avqust aylarında dinamika yenidən artıb və əmtəə mübadiləsinin həcmi 3 milyard dolları ötüb. Beləliklə, Çin Cənubi Qafqazda Azərbaycanın birinci iqtiadi-ticari tərəfdaşı olmaqla bu bölgənin cəmi ticarət mübadiləsinin 70 faizə yaxını Azərbaycanla həyata keçirir.

Çin, eyni zamanda, Cənubi Qafqazda ən çox sərmayələri Azərbaycana yönəldib. Asiya nəhənginin

### Cənubi Qafqazda birinci iqtisadi partnyor

ölkəmizə yatırdığı investisiyaların həcmi 942 milyon dollara çatıb. Həmin sərmayələrdən başqa, Çin şirkətləri ölkəmizdə müxtəlif sahələrdə iri layihələr icra edib. Eyni zamanda, Azərbaycan özü də potensial sərmayədar dövlət kimi Asiyanın maliyyə sektorunda öz mövqeyini gücləndirir və Dövlət Neft Fondunun investisiya portfelinin 2,2 milyard dolları Çinin maliyyə-investisiya sektorlarını əhatə etməkdədir. Bu gün Azərbaycanda Çin kapitalı ilə 375-dən çox şirkət qeydə alınıb, onlardan 300-ü ölkəmizdə aktiv fəaliyyət göstərir.

Yeri gəlmişkən, 2025-ci ildə qüvvəyə minən qarşılıqlı vizasız rejim nəticəsində Azərbaycana gələn çinli turistlərin sayı isə 42 faiz, Azərbaycandan Çinə gedənlərin sayı isə təxminən 85 faiz artıb.

### "Yaşıl nəqliyyat", "ağıllı texnologiya" şirkətləri ilə birgə planlar

Qlobal "yaşıl keçid"in təşviqində mühüm rol oynayan Çin dünyanın ən böyük "yaşıl energetika" sənayesi zəncirini yaradıb, bir çox ölkəyə əlçatan və yüksəkkeyfiyyətli ekoloji təmiz enerji həllərinə çıxış imkanı təmin edib. Bu baxımdan tərəflər arasında əməkdaşlıq regionda "yaşıl enerji" blokunun müasir platformasını təsis edəcək.

Çinin "Huawei", "Tencent", "Alibaba" və digər şirkətləri dünya bazarında İT və elektron ticarətin atributları sayılır, Azərbaycan bu İT nəhəngləri və digər "ağıllı texnologiya" şirkətləri ilə də razılaşma sənədləri imzalayıb. Eləcə də "yaşıl nəqliyyat" layihəsi çərçivəsində birgə əməkdaşlıq qurulub. Ölkəmizdə BYD şirkəti ilə birlikdə elektrik avtobuslarının istehsalına başlanması bu layihənin bir hissəsidir. Sumqayıt Sənaye parkında istehsal olunmuş 50 elektrobus artıq istifadəyə verilib. Müəssisə ilin sonunadək 300 elektrobus istehsal etməyi planlaşdırır. Həmin elektrobuslar Bakı, Naxçıvan və Qarabağda istifadə olunacaq.

Beləliklə, strateji tərəfdaşlıq və birgə təşəbbüslərin sürətlə icrası Azərbaycan və Çin arasında əməkdaşlığı möhkəmləndirməklə bərabər, regional və qlobal səviyyədə imkanları da artırır.

### "Kəmər və yol" təşəbbüsü Zəngəzuru qlobal haba çevirir

Azərbaycan və Çinin təşəbbüskarlığı ilə "Bir kəmər, bir yol"un yeni körpüsü olan Orta Dəhliz regional haba çevrilir. Asiya, Xəzəryanı ölkələri və Avropanın vahid logistika zəncirində birləşdirən bu dəhlizin əsas şaxələri olan Bakı-Tbilisi-Qars dəmir yolu, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi, həmçinin Xəzərdə ən iri limanlardan biri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Çinin müəllifi olduğu "Kəmər və yol" təşəbbüsünə tam inteqrasiya olunmaqdadır. Bu logistik kommunikasiyada artan tranzitlər sayəsində təkcə Azərbaycan ilə Çin arasında daşımaların həcmi 2025-ci ildə 6,7 faiz artaraq 1,4 milyon tona çatıb.

Uzunmüddətli hədəf regiondakı tərəfdaşların və coğrafi hüdudları daha da genişləndirməkdir. Yaxın illərdə Orta Dəhlizin Zəngəzurla birləşməsi Şərqdən gələn böyük iqtisadi resursların, mal və xidmətlərin Avropaya çıxarılmasını və əmtəə zəncirinin genişlənməsini təmin edəcək, nəticədə Azərbaycanın tranzit və əlaqələndirici ölkə kimi strateji mövqeyi daha da güclənəcək, Çin və Azərbaycan iqtisadi blokda bağlantılarını artırmaqla, eyni zamanda, geosiyasi dividentləri də artıracaq.

### ŞƏT Azərbaycan-Çin strateji tərəfdaşlığını yeni mərhələyə qaldırır

İki ölkə arasında imzalanmış Birgə Bəyannamənin ən mühüm detallarından biri Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) çərçivəsində Çinlə siyasi, iqtisadi, nəqliyyat-tranzit təmaslarının əlaqələndirilməsi, ölkəmizin bu nəhəng təşkilatda təmsilçiliyinin təmin edilməsidir. Birgə Bəyannamə faktiki olaraq Azərbaycanın bu qlobal təşkilatlarda layiqli ölkə iştirakçılığına hüquqi təminatlar yaradır. ŞƏT-də təmsil olunmaq Azərbaycan-Çin strateji tərəfdaşlığını yeni mərhələyə qaldırmaqla, həm ikitərəfli, həm də regional və beynəlxalq çərçivədə təmasların artırılması, mübadilələrin intensivləşdirilməsi və əməkdaşlığın dərinləşməsinə dərin zəmin yaradır.

Beləliklə, Azərbaycan və Çin arasında ikitərəfli münasibətlərin inkişafı regional və qlobal səviyyədə yeni iqtisadi-ticari-intensivləşdirilməsi və əməkdaşlığın dərinləşməsinə səfərbər etməkdədir. Müəyyən edilmiş yeni iqtisadi hədəflər, habelə trans-kontinental nəqliyyat zəncirində daşımaların Azərbaycan üzərindən Avropya səmtlənməsi ticarət dövriyyəsinin də böyüməsində əsaslı rol oynayacaq.

*E. CƏFƏRLİ*

# Strateji mineral ehtiyatlarının mənbəyi

## Azad ərazilər dağ-mədən sənayesinin əsas ünvanına çevrilir

Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasında 2027-2030-cu illərdə dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı" ölkəmizdə mineral resursların istehsalı və emalı, ixracı üçün əlavə imkanların səfərbər edilməsi, istehsal zəncirinin genişləndirilməsi və yeni güclərin yaradılması baxımından mühüm əhəmiyyət daşıyır. Proqramda strateji sahələrdən biri kimi işğaldan azad edilmiş ərazilərdəki dağ-mədən və metallurgiya sənayesinin inkişafını təşviq edən stimullaşdırıcı alətlərin tətbiqi, xarici sərmayədarlarla birgə işlərin aparılması və digər addımlar da nəzərdə tutulub.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ölkəmizin ümumi mineral-xammal potensialının çox böyük hissəsini təşkil edən olduqca zəngin təbii resurslara malikdir. Bölgəki qızıl, gümüş, mis, molibden, alüminium, qara metallurgiya üzrə ehtiyatlar mineral resurs mənbələrinin yarıdan çoxunu təşkil edir. Bu regionda 167 müxtəlif növ faydalı qazıntı və mineral su yatağı qeydə alınıb.

### Qarabağ və Şərqi Zəngəzurun yeni mineral xəritəsi hazırlanır

Kəlbəcərdə yerləşən məşhur Söyüdlü (Zod) və Tutxun yataqları, Zəngilandakı "Vejnəli" yatağı Azərbaycanın ən böyük nəcib metal ehtiyatlarındandır. Ağdərə rayonundakı "Qızılbulaq" qızıl-mis və "Dəmirli" mis-molibden yataqları sənaye əhəmiyyətinə görə regional miqyasda mühüm çəkiyə malikdir. Dünyada nadir tapılan civə yataqlarından bir neçəsi Kəlbəcərdəki "Şorbulaq" və "Ağyataq"da yerləşir. Qeyri-filiz yataqları ilə də zəngin olan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq layihələrini yerli xammalla təmin edən 120-dən çox tikinti materialı yatağı mövcuddur: Zəngilandakı Oxçuçay mərmərləşmiş əhəngdaşı və "Bartaz" porfirit yataqları yüksək keyfiyyətli inşaat xammalıdır. Eləcə də, Ağdam, Füzuli və Zəngilanda böyükhəcmli qeyri-filizlər mövcuddur. Hazırda bu yataqların böyük iqtisadi dəyərə çevrilməsi məqsədilə genişmiqyaslı geoloji kəşfiyyat işləri aparılır və regional mineral potensialın xəritəsi yenilənir.



Hazırda azad edilmiş ərazilərdə qızılçıxarma sənayesində yeni mərhələ başlayıb. Milli istehsal brendimiz olan "AzerGold" hasilat zonalarında böyük investisiya layihəsi icra edir. Qafqazın ən böyük qızıl yataqlarından biri olan "Söyüdlü" yatağında - "Zod" yatağında fəaliyyət artıq təmin edilib. "AzerGold"a 2026-cı ildə qeyri-filiz yataqları üzrə operator statusu da həvalə edilib ki, bu da istismar işlərinin daha da genişləndirilməsi deməkdir. Şirkət Dövlət Proqramı çərçi-



### "AzerGold"un ambisiyalı hasilat planı - 3,6 milyard manat investisiya

vəsində 4 əsas strateji istiqamət üzrə layihə həyata keçirməyi planlaşdırır. İlk layihə "Söyüdlü" qızıl yatağıdır. Burada ilk istehsal 2028-ci ildə nəzərdə tutulub. Layihənin qızıl resursu 1,03 milyon unsiya qızıldır və kəşfiyyat davam etdirilir, bu rəqəmin artması ehtimalı da var. İqtisadi dəyəri qızılın bugünkü qiyməti ilə 7,5 milyard manat təşkil edir, tələb olunan investisiya 425 milyon manatdır. Bu investisiyanın icrası "AzerGold"un daxili gəliri hesabına və cəlb edəcəyi borc hesabına planlaşdırılır.

İkinci layihə Naxçıvanda yerləşən "Ortakənd" qızıl yatağıdır. Burada ilk istehsal 2029-cu ildə nəzərdə tutulub. Qızılın resursu 246 min unsiya təşkil edir və iqtisadi dəyəri 1,8 milyard manatdır. Tələb olunan investisiya 255 milyon manatdır, bu layihənin də icrası "AzerGold"un daxili gəliri hesabına və cəlb ediləcək borc hesabına planlaşdırılır.

Digər layihə "Filizçay" polimetal yatağı dünyadakı digər polimetal yataqları kimi müxtəlif geoloji və digər amillərə görə ən mürəkkəb yataqlardan biridir. Bu layihənin tam gücü ilə istismara verilməsi 2031-ci ilin sonuna planlaşdırılır. Yatağın 34 illik istismarı dövründə 363 min ton mis, 2,7 milyon ton sink və 1 milyon ton qurğuşun resursunun hasilata cəlb edilməsi planlaşdırılır. Layihənin iqtisadi dəyəri 29,7 milyard manat təşkil edir və tələb olunan investisiya təxminən 1 milyard manatdır. Başqa bir layihə isə azad ərazilərdə və ətraf sənaye zonalarında dağ-mədən və metallurgiya komplekslərinin vahid istehsal zəncirində birləşdirilməsidir.

Ümumilikdə, həmin layihələr üzrə toplam investisiya həcmi təxminən 3,6 milyard manat təşkil edir və bu investisiyaların yalnız təxminən 10 faizinin dövlət büdcəsi hesabına maliyyələşdirilməsi planlaşdırılır.

### Türkiyənin mədən şirkətləri azad ərazilərdə

Azad ərazilərdə mədənçıxarma sənayesinə yerli şirkətlərlə yanaşı, xarici investorların da cəlb edilməsi nəzərdə tutulur. Azərbaycan hökuməti Kəlbəcər, Zəngilan, Cəbrayıl, Ağdərə rayonlarındakı qızıl yataqlarının hasilatına xarici investorların cəlb etməkdədir. Qardaş Türkiyənin "Eti Bakır A.Ş" və "Artvin Maden A.Ş" şirkətləri Kəlbəcərin "Qaşqaçay", "Elbəydaş" və "Ağduzdağ" filiz yataqlarında hasilata başlamaqdadır. Eləcə də digər zəngin mənbələr olan "Söyüdlü", "Qızılbulaq", "Vejnəli", "Dəmirli" yataqlarının işlənməsi üçün xarici investorların təklifləri nəzərdən keçirilir.

Eləcə də Böyük Britaniyanın "Anglo Asian Mining PLC" şirkəti mis, gümüş və qızıl mədənlərində - "Xarxar" və "Qaradağ", "Dəmirli" yataqlarında işlərini davam etdirir. Bu layihələrin icrası azad ərazilərin böyük valyuta gətirəcək zonaya çevrilməsini təmin edəcək.

Dövlət başçısının "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" sərəncamına əsasən, azad ərazilərdə uçotda olan və fəaliyyət göstərən sahibkarlıq subyektləri

### Vergi-gömrük güzəştləri, iqtisadi stimullar

2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətinə mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən, eləcə də sosial vergilərdən azad olunublar ki, bu amil həmin bölgəyə sənaye qruplarının axınlarını sürətləndirəcək.

Proqramın təsiri təkcə dağ-mədən və metallurgiya sektoru ilə məhdudlaşmayacaq. İstehsal çoxaldıqca yükdaşımalar və logistika xidmətlərinə tələb artacaq, yerli podratçı və təchizatçı şirkətlər üçün yeni imkanlar yaranacaq. Yerli xammal və yarımfabrikat bazasının genişlənməsi yeni sənaye sahələrinin formalaşmasına şərait yaradacaq. İxtisaslı kadrlara tələbat artacaq. Bu da texniki bilik və bacarıqların inkişafını sürətləndirəcək, elmi potensialımıza töhfə verəcək. Nəticədə azad ərazilər müasir sənaye quruculuğunun mərkəzi olmaqla, elmtutumlu iqtisadiyyatın da əsas sütunlarından birini təşkil edəcək.

Beləliklə, Azərbaycan Respublikasında 2027-2030-cu illərdə dağ-mədən və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı"nın icrası azad ərazilərin böyük valyuta gətirəcək zonaya çevrilməsinə, Azərbaycanın qızıl ehtiyatlarının artmasına səbəb olacaq.

*E.CƏFƏRLİ*

# İcma: Ermənistanın dövlət məsuliyyətini və cinayətlərini danması siyasəti iflasa məhkumdur

Qərbi Azərbaycan İcması Ermənistanda bir qrup vətəndaş cəmiyyəti nümayəndəsinin diplomatik missiyalara və beynəlxalq təşkilatlara ünvanladığı, 2020-ci ildən əvvəlki ritorika və hekayətləri xatırladan müraciəti kəskin şəkildə pisləyir.

Bu barədə Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda bildirilib.

Bəyanatda müraciət müəlliflərinə xatırladılıb ki, orada qeyd edilən "işğal", "soyqırımı", "etnik təmizləmə", "güc tətbiq edilməsi", "tarixi-mədəni irsin dağıdılması və başqa xalqların adına çıxarılması" məhz son 30 il ərzində Ermənistanın Azərbaycana qarşı yürütdüyü dövlət siyasətinin tərkib hissəsi olub.

"Azərbaycan hətta işğala son qoyulduqdan sonra belə, onun yaratdığı kütləvi dağıntıların, mina təhlükəsinin, itkin düşmüş şəxslərlə bağlı problemin və digər fəsadların təsirindən tam olaraq xilas ola bilmir.

Bəyanat müəlliflərinə həm də onu xatırladırıq ki, Ermənistanın Azərbaycanı ittiham edib özünün dövlət məsuliyyətini və cinayətlərini danması siyasəti iflasa məhkumdur. Biz, qərbi azərbaycanlılar, Ermənistan ərazisində dağıdılan və başqa xalqların adına çıxarılan tarixi-mədəni irsimizi, o cümlədən Göy Məscidi, Sərdar sarayını və Dədə Ələsgərin məzarını, habelə alban-xristian irsimizi heç vaxt yaddan çıxarmayacağıq.

Qərbi Azərbaycan İcması Ermənistan hakimiyyətini sülh və normallaşma ilə tam ziddiyyət təşkil edən belə açıqlamalara və fəaliyyətə imkan verməməyə, cəmiyyəti sülhə hazırlamağa, erməni cəmiyyətini isə "Bəlkə də qaytardılar" xülyasından və revanşizmdən əl çəkməyə çağırır", - deyə bəyanatda qeyd olunub.

# Ərdoğandan mühüm çağırışlar...

## Azərbaycan və Türkiyə yeni körpülər yaratmaqla dünyada nümunə kimi çıxış edirlər

**Hazırda dünyada davam edən mürəkkəb proseslər fonunda bəzi ölkələr beynəlxalq müstəvidə sülhün, sabitliyin və ədalətin bərpası üçün səy göstərir. Belə ölkələrdən biri də Türkiyədir. Prezident Rəcəb Tayyib Ərdoğan BMT Baş Assambleyasının payız sessiyası çərçivəsində Nyu-Yorkda onu müşayiət edən jurnalistlərlə söhbətində deyib ki, Türkiyə və onun xalqı bütün dövrlərdə tarixin doğru tərəfində dayanaraq qətiyyətlə ədalətsizliyə qarşı çıxıb. Onun sözlərinə görə, beynəlxalq ictimaiyyət addım-addım rəsmi Ankaranın əvvəldən tutduğu mövqeyə yaxınlaşır.**

### "Dünyaya yeni "körpülər" lazımdır, "divarlar" yox"

Prezident Ərdoğan qlobal münasibətlər sistemində baş verən dəyişikliklərə diqqət çəkib: "Bu gün biz 190-dan çox ölkənin maraqlarının BMT Təhlükəsizlik Şurasının beş daimi üzvünün veto hüququ ilə məhdudlaşdırıldığı BMT sistemindən danışırıq. Belə ədalətsiz struktur qlobal sabitliyi və bəyan edilmiş prinsipləri qorumaq iqtidarında deyil. Əsas məsələ odur ki, dünyanın müxtəlif regionları qlobal proseslərdə layiqli yer tuta bilsinlər". O, veto mexanizminin ləğvinin vacibliyini vurğulayıb: "Yalnız beş dövlətin maraqlarını qoruyan model öz yerini bütün ölkələrin gözləntilərinə cavab verən mexanizmlərə verməlidir. Dünyaya yeni "körpülər" lazımdır, "divarlar" yox".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sessiyada çıxışı zamanı da BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasının zəruri olduğunu bəyan edib. O, Təhlükəsizlik Şurasının beş daimi üzvün qərarlarından asılı olmasını tənqid edib: "Beş ölkənin iradəsindən asılı olan bir strukturun nə ədalətli olduğunu, nə də tam məna da etimad yarada biləcəyini qəbul etməliyik. Təhlükəsizlik Şurasında "dünya beşdən böyükdür" prinsipi əsasında mütləq islahatlar aparılmalıdır". Rəcəb Tayyib Ərdoğan beynəlxalq hüququn güclü və zəif dövlətlərə fərqli şəkildə tətbiq edildiyi mövcud yanaşmanın dəyişdirilməli olduğunu bildirib: "Əməllərin cəzasız qaldığı, üstəlik cəzasızlığın adiləşdiyi beynəlxalq sistem çürüməyə məhkumdur".



İran ətrafında gərginliyə toxunan Türkiyə lideri bildirib ki, Hörmüz boğazındakı vəziyyət yalnız Tehranı və ya Vaşinqtonu maraqlandırmır: "Biz Hörmüz boğazının gəmiçilik üçün bağlanmasının əleyhinəyik. Bu regionda istənilən gərginlik Avropaya, Asiyaya, enerji bazarlarına və milyonlarla insanın gündəlik həyatına təsir göstərir. Problemlər danışıqlar və diplomatiya yolu ilə həll edilməlidir. Yeni dialoq kanalları üçün yol açmaq lazımdır".

Prezident Ərdoğan Rusiya ilə Ukrayna arasında gedən müharibə fonunda Qara dəniz akvatoriyasında təhlükəsizliklə bağlı vəziyyəti də xüsusi əhəmiyyət daşıyan məsələ adlandırıb. "Qara dəniz müharibənin növbəti cəbhəsinə çevrilməməlidir. Müharibə aparan ölkələrlə təmaslarımız zamanı Kiyevə və Moskvaya Qara dənizdə gəmiçiliyin təhlükəsizliyinin bərpa edilməsinin zəruriliyini çatdırırıq. Bu, iki mühüm nəticəyə gətirib çıxaracaq: ərzaq təhlükəsizliyinin təmin olunmasına və müharibənin əhatə dairəsinin genişlənməsinin qarşısının alınmasına. Təhlükənin haradan qaynaqlanmasından asılı olmayaraq, gəmilərə hücum edilməsinin qəti əleyhinəyik. Tərəflərdən bu məsələyə məsuliyyətli yanaşmalarını gözləyirik", - deyə Türkiyənin dövlət başçısı vurğulayıb.

### Yeni dialoq imkanları açmaq lazımdır

Bununla yanaşı, o, Ankaranın taxıl dəhlizinin yenidən fəaliyyətə başlaması istiqamətində göstərdiyi səylərdən danışıb: "Bu məsələ ilə bağlı diplomatik addımlarımızı intensivləşdirmişik. Mən şəxsən bu təşəbbüsü yenidən Ukrayna Prezidenti Volodimir Zelenski ilə müzakirə etdim. Onun reaksiyası müsbət oldu".

Hazırkı şəraitdə Prezident Ərdoğanın "Dünyaya yeni "körpülər" lazımdır, "divarlar" yox" sözləri beynəlxalq müstəvidə real mənzərəni əks etdirir. Çünki müəyyən beynəlxalq güclər digər ölkələr arasında təsirlərini gücləndirmək üçün müxtəlif təzyiq metodlarından istifadə edir. Bura münaqişələr də daxil olmaqla, münasibətlərin dayandırılması, müxtəlif sankisyaların tətbiqi və s. daxildir. Belə bir şəraitdə iki qardaş ölkə olan Azərbaycanla Türkiyə həqiqətən də "dünya üçün yeni körpülər" qurur.

### İki qardaş ölkənin təşəbbüsləri...

Nəzərə alaq ki, Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra yeni reallıqlar yaradıb. Dövlətimizin məqsədi regionun sülh və əməkdaşlıq məkanına çevrilməsidir. İki qardaş ölkənin təşəbbüs göstərdiyi "3+3" formatı da bu məqsədə xidmət edir. Yaxın illərdə gerçəkləşəcək Zəngəzur dəhlizi də Avropa və Asiya qitələri arasında körpü rolunu oynayacaq.

Məlumdur ki, ölkələrimiz arasında enerji, nəqliyyat və ticarət sahələrində qurulan əlaqələr də münasibətlərin əsas sütunlarından biri olub. 2000-ci illərdə həyata keçirilən iri enerji və infrastruktur layihələri - xüsusilə Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu layihələri, daha sonra Cənub Qaz Dəhlizi Azərbaycanın Avropaya enerji ixracını təmin etməklə yanaşı, Türkiyəni regionda mühüm enerji tranzit mərkəzinə çevirib. Bu əməkdaşlıq hər iki ölkənin iqtisadi dayanıqlığını və regional mövqeyini gücləndirib. Hazırda ölkələrimiz yeni layihələr üzərində işləyir. Bu çərçivədə, Orta Dəhlizin inkişafı, tranzit imkanlarının artırılması və qarşılıqlı iqtisadi əlaqələrin daha da dərinləşdirilməsi ilə bağlı məsələlər böyük önəm kəsb edir. Azərbaycanın əsas hissəsindən onun Naxçıvan Muxtar Respublikasına, daha sonra Türkiyəyə və regionun digər istiqamətlərinə bağlantıların inkişaf etdirilməsi üzrə işlər regionda uzunmüddətli sülh, sabitlik və əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edəcək.

Bütövlükdə, Cənubi Qafqazda yaranmış yeni reallıqlar, eləcə də Yaxın Şərqdə mövcud gərginlik, xüsusilə İran ətrafında yaranmış vəziyyət iki qardaş ölkənin diqqət mərkəzindədir. Dövlətlərimiz regionumuzda sülhün və sabitliyin təmin olunması üçün birgə diplomatik fəaliyyət həyata keçirir. Bu baxımdan, Azərbaycan-Türkiyə müttəfiqliyi təkcə simvolik deyil, institusional səviyyədə də davamlı və çoxqatlı xarakter daşıyır. Energetika, logistika və təhlükəsizlik məsələlərinin paralel müzakirə olunması iki ölkənin regional layihələrdə əlaqələndirilmiş mövqe nümayiş etdirməyə davam etdiyinə işarədir. Bu cür davamlı yüksək səviyyəli təmaslar Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin təkcə bəyanat xarakterli deyil, praktiki əməkdaşlıq mexanizmləri ilə də dəstəkləndiyinin göstəricisidir. Bütün bunların fonunda Prezident Ərdoğanın çağırışları sülh və əməkdaşlıq naminə digər ölkələri də həmrəyliyə təşviq edir.

*Nardar BAYRAMLI*

# Növbəti raund olacaqmı?

## ABŞ, Ukrayna və Rusiya yenidən masa arxasına qayıdır

**Artıq 7 aydır 5-ci ilə qədəm qoymuş Rusiya-Ukrayna müharibəsində atəşkəsə nail olunması üçün danışıqlar prosesi yenidən start götürə bilər. Xatırladaq ki, bundan öncə də bu istiqamətdə müəyyən addımlar atılmışdı. ABŞ-ın vasitəçiliyi ilə bu ilin 23-24 yanvar və 4-5 fevral tarixlərində BƏƏ-də baş tutan danışıqlar müəyyən epizodik nailiyyətlərlə yadda qalsa da, münaqişənin dayandırılmasına nail olunmamışdı. Danışıqların üçüncü raundu 17-18 fevral tarixlərində İsveçrədə keçirilmişdi. Növbəti danışıqlar raundunun 5-8 mart tarixlərində Əbu-Dabidə keçirilməsi planlaşdırılsa da, Ukrayna lideri Volodimir Zelenski Yaxın Şərqdəki döyüşlər səbəbindən bu görüşü təxirə salmışdı.**

### Görüş nəzərdə tutulurdu...

Yaxın Şərq böhranının davam etməsi fonunda Kiyev yenidən danışıqlar üçün "yol açıb". Ukrayna mətbuatının məlumatına görə, görüşün keçirilməsi barədə razılıq Ukrayna Prezidenti Volodimir Zelenski və ABŞ Prezidenti Donald Tramp arasında sentyabrın 22-də Nyu-Yorkda baş tutan danışıqlar zamanı əldə olunub. Vurğulanırdı ki, görüşdə Ukrayna Prezidenti Ofisinin rəhbəri Kirill Budanovun, Xarici Kəşfiyyat Xidmətinin rəhbəri Rüstəm Umerovun, Trampın xüsusi elçiləri Cared Kuşnerin və Stiv Uitkoffun, eləcə də Rusiya Prezidentinin xüsusi elçisi Kirill Dmitriyevin iştirak etməsi gözlənilirdi. Müzakirənin əsas məsələsi kimi isə enerji sahəsində atəşkəs, xüsusən də tərəflərin onu şərh etməsi və razılaşmalara əməl olunmasına nəzarət mexanizmləri olacaqdı. Mənbə bildirirdi ki, Rusiya tərəfi sərbəst gəmiçilik və Rusiya neftini ixrac edən "kölgə donanması" ilə bağlı məsələlərin gündəliyə daxil edilməsini istəyirdi. Hətta müharibənin başa çatdırılması üzrə yol xəritələrinin hazırlanmasına Trampın Çin Sədri Si Cinpinlə görüşünün də təsir edə biləcəyi vurğulanırdı.

Vurğulandığı kimi, bu təklif rəsmi Kiyevdən gəlmişdi. Ukrayna Prezidenti Volodimir Zelenski amerikalı həmkarı Donald Trampla görüşündə bu görüşlə bağlı istəyini ifadə etmişdi. Zelenski bildirmişdi ki, ABŞ rəhbərlik səviyyəsində deyil, əvvəlcə texniki qruplar arasında görüş keçirməyi planlaşdırıb - görüşün keçirilməsi üçün mümkün yer Əbu-Dabi hesab olunurdu. Ukrayna prezidenti həmçinin qeyd etmişdi ki, görüş Tramp üçün də dekabr ayında Mayamidə keçiriləcək G20 sammitinin də rəhbərlik səviyyəsində üçtərəfli sammit keçirmək üçün bir fürsət ola bilər. Ukrayna prezidenti bununla bağlı müsahibəsində bildirmişdi ki, Tramp administrasiyası Rusiyanın Ukraynaya qarşı müharibəni dayandırmaq və Moskva ilə dip-

### 3 addımlıq atəşkəs...

lomatik münasibətləri bərpa etmək səylərinin bir hissəsi olaraq üç təcili addım atmaqda israr edir:

- Enerji infrastrukturunda atəşkəs;
- Qara dəniz taxıl dəhlizinin bərpası;
- ABŞ, Rusiya və Ukrayna arasında, ehtimal ki, Əbu-Dabidə üçtərəfli görüş.

Sentyabrın 23-də ABŞ Dövlət katibi Marko Rubio da açıqlamasında bildirmişdi ki, Ukrayna və Rusiyanın taxıl və enerji məsələlərini əhatə edəcək məhdud atəşkəsə nail olmaqda Vaşinqton da maraqlıdır.

Hətta Nyu-Yorkda Zelenski ilə görüşündən əvvəl də Tramp dəfələrlə Ukrayna prezidentindən Rusiyanın neft emalı zavodlarına hücumlara son qoyacağını gözlədiyini açıq şəkildə qeyd etmişdi və bunun qlobal yanacaq bazarına təsirini vurğulamışdı.

### Tramp Zelenskinin sözünü kəsdi...

Volodimir Zelenskinin Nyu-Yorka səfəri fonunda ABŞ prezidenti Donald Tramp Vaşinqtonu Ukraynanın müttəfiqi deyil, münaqişədə vasitəçi kimi təqdim etməyə çalışıb. Bu barədə İtaliyanın "La Stampa" qəzeti məlumat verir. Nəşr qeyd edir ki, ABŞ liderinin Zelenski ilə görüşü və BMT Baş Assambleyasının 81-ci sessiyasının ümumi siyasi müzakirələrindəki çıxışı zamanı qeyd edilib ki, "Amerikanın dəstəyi uzaq görünürdü və Rusiyanın neft emalı zavodlarına hücumların dayandırılması tələbləri fonunda arxa plana keçdi".

Donald Tramp daha əvvəl Nyu-Yorkda Zelenski ilə jurnalistlərə danışarkən Ukraynanın qışdan əvvəl Rusiya ilə münaqişənin həllinə nail olmağa çalışmasının vacib olduğunu bildirmişdi. Tramp Amerika liderinin münaqişənin sona çatmasında köməyinə ümid etdiyini bildirən Zelenskinin sözünü kəsmişdi.



### Rusiya ABŞ ilə danışıqlara hazırdır, Ukrayna ilə isə...

Qeyd edək ki, Donald Tramp Rusiya Prezidenti Vladimir Putini G20 sammitinə dəvət edib. Bu barədə ABŞ dövlət katibi Marko Rubio bildirib - qeyd olunub ki, ABŞ administrasiyası Rusiya prezidenti Vladimir Putinə dekabrda baş tutacaq G20 sammitinə dəvət göndərib. Xatırladaq ki, G20 sammiti 14-15 dekabr tarixlərində Mayami yaxınlığındakı Doralda keçiriləcək.

Xatırladaq ki, Aİ-də Rusiyanın G20-də iştirakını dəstəkləyir. Bu barədə Avropa Komissiyasının rəsmi nümayəndəsi Olaf Qill Brüsseldə keçirilən brifinqdə Putinin ABŞ-da keçiriləcək G20 sammitinə dəvət edilməsini şərh edərkən bildirib. O qeyd edib ki, Rusiya "Böyük İyirmiliy"in (G20) üzvü kimi qrupun görüşlərində iştirak etmək hüququna malikdir. "Rusiya G20-nin üzvü olaraq qalır. Buna görə də G20-nin görüşlərində iştirak etmək hüququna malikdir", - o bildirib.

Bununla belə, o qeyd edib ki, Aİ Rusiyanın Ukraynaya hərbi müdaxiləsini pisləmək və müharibəyə son qoymağa çağırmaq məqsədilə G20 görüşlərindən istifadə etməyə davam edəcək.

Rusiya dövlət başçısının mətbuat katibi Dmitri Peskov brifinqdə bildirib ki, Putin amerikalı həmkarı Donald Trampla görüş keçirməyə hazırdır. O qeyd edib ki, lakin bu cür təmasların mümkün keçirilmə müddətlərinə dair heç bir konkretlik yoxdur: "Ali səviyyəli hər hansı görüşlərlə bağlı heç bir konkretlik yoxdur. Əgər Rusiya-ABŞ görüşündən danışırıqsa, dövlət başçısı buna hazırdır". O həmçinin xatırladıb ki, prezidentlər öz telefon danışıqlarında zərurət yaranarsa, daha bir görüş keçirməyə hazır olduqlarını həmişə vurğulayırlar.

Üçtərəfli görüşə gəldikdə isə, o bildirib ki, Rusiya, ABŞ və Ukrayna nümayəndələri arasında üçtərəfli görüşün keçirilməsi ehtimalı Rusiya və Amerika liderləri Vladimir Putin və Donald Tramp arasında telefon danışığında müzakirə olunub, lakin hələlik konkret məlumat açıqlanmayıb. "Xatırlayırsınızsa, Putin və Tramp arasında telefon danışığından sonra müzakirə etdiyimiz bu idi. Həqiqətən də, belə bir müzakirə baş tutub və yaxın gələcəkdə belə bir görüşün baş tuta biləcəyi barədə söhbətlər gedirdi. Bu, Putin və Tramp arasında telefon danışığı zamanı olub. Hazırda sizə daha çox konkret məlumat verə bilmərəm", - deyə Kremlin sözçüsü bildirib.

Bununla belə, Peskov vurğulayıb ki, Rusiya Prezidentinin xarici ölkələrlə investisiya və iqtisadi əməkdaşlıq üzrə xüsusi nümayəndəsi, RDİF-in rəhbəri Kirill Dmitriev ABŞ-ın danışıqlar aparan tərəflər ilə təmasları davam etdirir və ilk növbədə iqtisadiyyatda potensial qarşılıqlı əlaqə məsələlərinə diqqət yetirir. "Dmitriev amerikalı danışıqlarçılarla təmaslarını davam etdirir və hazırda mövcud olmayan iqtisadi sahədə potensial qarşılıqlı əlaqə məsələlərinə diqqət yetirməkdə davam edir, lakin buna baxmayaraq, bunun faydalı ola biləcəyi anlaşılır. Bu barədə son müzakirələr gedir", - Kreml nümayəndəsi qeyd edib.

*SADİQ*

# Nyu-Yorkda ABŞ-İran müzakirələri...

ABŞ və İran arasında münaqişənin danışıqlar yolu ilə həlli üçün təşəbbüslər davam edir. Belə ki, Nyu-Yorkda BMT Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində tərəflər arasında danışıqlar baş tutub. Donald Trampın xüsusi elçisi Stiv Uitkoff "X" sosial platformasında bildirib ki, Vaşinqton iki tərəf arasında vasitəçilərin iştirakı ilə uzun danışıqlar aparıb. O, öz paylaşımında əlavə edib: "Onlar konstruktiv və perspektivli olacağına ümid etdiyimiz bir sıra müzakirələri uğurla başa çatdırıblar. Vasitəçilər işlərini davam etdirəcəklər".






## Tramp: İranın nüvə silahına sahib olmasına imkan verməyəcəm

Nyu-Yorkda ABŞ və İran prezidentləri arasında görüşün keçiriləcəyi bildirilsə də, bu, baş tutmayıb. ABŞ Dövlət katibi Marko Rubio deyib ki, Prezident Donald Tramp İran Prezidenti ilə görüşə açıqdır. "Prezident problemlərin həlli üçün dialoqun vacibliyinə inanır. Bu, qarşı tərəflə razılaşacağımız demək deyil. Hazırda hər hansı görüşün planlaşdırıldığını düşünmürəm, lakin müsbət nəticəyə gətirib çıxara biləcək belə bir görüşə açığıq", - deyə Rubio qeyd edib. Dövlət katibi vurğulayıb ki, mümkün danışıqların əsas məqsədi İranın nüvə silahı əldə etməsinin qarşısını almaqdır. "İran heç vaxt nüvə silahına malik ola bilməz", - deyə o söyləyib. Rubionun fikrincə, İranın heç vaxt nüvə silahı əldə etməməsi təmin olunmalıdır. "Dünyada terrorizmin aparıcı sponsorunun nüvə silahına sahib olması qəbuledilməzdir", - deyən dövlət katibi əlavə edib ki, ABŞ Prezidentinin İranın nüvə imkanlarını məhdudlaşdırmaq istiqamətində səyləri ötən il İranın nüvə obyektlərinə endirilən zərbələrlə yekunlaşmır. O bildirib ki, Tramp bu məsələdə növbəti nəsli düşünür. Rubio, həmçinin ABŞ hərbçilərinin Hörmüz boğazının bir hissəsinin kommersiya və neft tankerlərinin hərəkəti üçün açıq qalmasını təmin etdiyini diqqətə çatdırıb.

ABŞ Prezidenti Donald Tramp da BMT Baş Assambleyasının 81-ci sessiyasının yüksəksəviyyəli ümumi müzakirələrində çıxışı zamanı İranın nüvə silahına sahib olmasına heç vaxt icazə verməyəcəyini bəyan edib: "Onlar Yaxın Şərqin zorakı qüvvəsi idilər, amma artıq belə deyillər. Siyasi arenaya qədəm qoyduğum ilk gündən mövqeyim dəyişməz olub: İranın nüvə silahına sahib olmasına heç vaxt icazə verməyəcəyəm. İrana təzyiqi davam etdirmək üçün birlik nümayiş etdirməliyik". O, Nyu-Yorkda tərəflər arasında keçirilən görüşə də münasibət bildirib. "İranla görüş çox yaxşı keçdi" - deyən Tramp əlavə edib ki, görüş təxminən üç saat davam edib. Tramp tərəflər arasında yaxın zamanda daha bir görüşün keçirilməsinin planlaşdırıldığını da qeyd edib.

## Pezeşkian: İran hücumlara cavab olaraq özünü müdafiə edir

İran Prezidenti Məsud Pezeşkian isə BMT-nin Baş Assambleyasının 81-ci sessiyasında bəyan edib ki, İran heç vaxt təcavüzkar olmayıb və müharibəyə başlamayıb. Onun sözlərinə görə, ölkəsinin hərbi imkanları hücum məqsədi daşımır və İran hücumlara cavab olaraq özünü müdafiə edir. Məsud Pezeşkian ölkəsinə qarşı tətbiq edilən sanksiyaların əsas zərbəsinin əhalinin həssas təbəqələrinə dəydiyini bildirib. "İran sanksiyalara məruz qalır. Xəstələr, günahsız insanlar, yoxsullar və cəmiyyətimizin ən həssas təbəqələri bu sanksiyaların hədəfinə çevrilirlər", - deyən İran Prezidentinin sözlərinə görə, sülh və sabitlik üçün bütün ölkələrə münasibətdə eyni standart tətbiq edilməlidir: "İran xüsusi münasibət istəmir. Biz bərabər hüquqlar istəyirik və bununla yanaşı, üzərimizə düşən məsuliyyəti də qəbul edirik".

Pezeşkian əlavə edib ki, sanksiyaların və təzyiqlərin artırılması ölkəsinin mövqeyini dəyişməyəcək: "Sanksiyalar, artan təzyiq və güc dili qarşısında İran xalqının müqaviməti yalnız artacaq. Biz heç vaxt başımızı əyməyəcəyik". O, ölkəsinin regionda güclü qonşuların olmasını istədiyini və öz təhlükəsizliyini digər dövlətlərin təhlükəsizliyi hesabına təmin etməyə çalışmadığını bildirib. "Biz hegemonluğa can atmırıq və təhlükəsizliyimizi başqalarının təhlükəsizliyinin pozulmasında görmürük. İran güclü olmalıdır ki, təhdid edilməsin və gələcəyi təhlükə altında qalmasın", - deyən İran Prezidenti regional problemlərin bölgədəki dövlətlər tərəfindən həll edilməsinin vacibliyini vurğulayıb: "Regionumuzdakı məsələlər bölgədəki ölkələr tərəfindən həll edilməlidir". Pezeşkian əlavə edib ki, region ölkələrinin təhlükəsizliyi bir-biri ilə bağlıdır: "Heç kim təkbaşına təhlükəsiz ola bilməz. Ya təhlükəsizliyi birlikdə quracağıq, ya da birlikdə təhlükəsizlikdən məhrum şəraitdə yaşamalı olacağıq".

Pezeşkian vurğulayıb ki, ölkəsi ABŞ ilə danışıqlara hazırdır, amma güc dilini qəbul etmir. İranın danışıqlar masasına sadiq qaldığını bildirən Prezidentin sözlərinə görə, Tehran münaqişənin diplomatik yolla həllinə inanır, lakin bunu təhdid və hərbi təzyiq şəraitində qəbul etmir.

Məsud Pezeşkian "Fox News" telekanalına müsahibəsində də deyib ki, İran ABŞ ilə razılaşmaya hazırdır və tələblərini yalnız beynəlxalq hüquq çərçivəsində irəli sürür. O bildirib ki, Tehran beynəlxalq hüquqa əsaslanan razılaşma əldə etməyə çalışır və indiyədək bundan artıq heç nə tələb etməyib. Pezeşkianın sözlərinə görə, ABŞ tərəfi də bu yanaşmanı qəbul edərsə, İran razılaşma əldə etmək üçün danışıqlara hazırdır.

## Tehran şərtlərini Vaşinqtona çatdırıb

Qeyd edək ki, İran ABŞ-a danışıqları bərpa etmək və Hörmüz boğazını yenidən açmaq təklifini çatdırıb. İranın xarici işlər naziri Abbas Əraqçi "The Washington Post" qəzetinə bildirib ki, Tehran ABŞ administrasiyasına tammiqyaslı münaqişəyə son qoymaq üçün danışıqların yeddi gün ərzində bərpa edilməsini təklif edib. Təklifin iyunda tərəflər arasında əldə olunmuş anlaşma memorandumuna bənzədiyi qeyd olunur. Əraqçi Vaşinqtonun cavabını gözlədiklərini bildirib. Onun sözlərinə görə, Tehran tələsmir, lakin danışıqların ABŞ-da noyabrda keçiriləcək Konqres seçkilərindən əvvəl bərpa olunmasını məqsədəuyğun hesab edir.

İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Bəqai isə Nyu-Yorkda Qətərin vasitəçiliyi ilə ABŞ nümayəndələriylə əlaqə saxlayıb və bütün cəbhələrdə müharibənin dayandırılması daxil olmaqla Tehranın şərtlərini çatdırıb. Bu barədə İsmayıl Bəqai İranın dövlət xəbər agentliyi IRNA-ya bildirib. O qeyd edib ki, Tehranın şərtlərinə dəniz blokadasına və iqtisadi müharibəyə son qoyulması, İran aktivlərinin azad edilməsi də daxildir.

*N.BAYRAMLI*

# 3 il sonra... 3 günlük...

## Çin Xalq Respublikasının lideri Si Cinpin ABŞ-a səfər edib

Qlobal dünyanın güc mərkəzləri arasında Çin və ABŞ xüsusi əhəmiyyət daşıyır. Etiraf edilməlidir ki, son 10 ilin aparıcı iqtisadi, siyasi hətta hərbi gücü statusunda məhz bu iki dövlət çıxış edir - bu baxımdan Çin və ABŞ liderlərinin görüşü hər zaman xüsusi diqqət çəkir. Bu dəfə də analoji hal yaşandı. Beynəlxalq münasibətlər sisteminin tənzimlənməsində aktiv iştirak edən iki güc mərkəzinin rəhbərinin Vaşinqtonda baş tutan görüşü gündəmin əsas hadisəsinə çevrildi.

Qeyd edək ki, Çin lideri Si Cinpin 3 illik fasilədən sonra ABŞ-a ilk dəfə olaraq üç günlük səfər edib. ABŞ prezidenti Donald Tramp Çin liderini Merilenddəki Endryus Birgə Bazasında şəxsən qarşılayıb. Qarşılanma mərasimi xüsusilə diqqət çəkib - belə ki, Si Cinpin hərbi orkestr və artilleriya salamı ilə müşayiət olunub, B1 bombardmançı təyyarə bazanın üzərindən uçuş edib. Qeyd edək ki, ABŞ prezidentinin hansısa xarici ölkə liderini Endryus Hərbi Hava Qüvvələri Bazasında sonuncu dəfə qəbul etməsi 11 il əvvələ təsadüf edir - 2015-ci ildə Barak Obama bu bazada Papa Fransiski qaşılayıb. Bundan əvvəl, 1962-ci ildə Prezident Con Kennedi Britaniya Baş naziri Harold Makmillanı bu bazada qarşılamışdı. Beləliklə, Si Cinpinin qarşılanma mərasimi təxminən on ildən çox müddət ərzində ABŞ prezidentinin rəhbərliyi altında bazada xarici liderin ilk belə qəbulu kimi yadda qaldı. İki lider arasında son görüş may ayında Pekində baş tutmuşdu.

Çin Xarici İşlər Nazirliyinin açıqlamasına görə, Çin rəhbəri Si Cinpin və ABŞ prezidenti Donald Tramp Ağ Evdə nümayəndə heyətlərinin iştirakı ilə danışıqlar aparıblar. Donald Trampla görüşündə iki tərəfin iki ölkə arasında "yeni ticarət sazişi" barədə razılığa gəldiyini açıqlayan Çin lideri Si Cinpin bunun hər




## Çin və ABŞ yeni ticarət sazişi barədə razılığa gəliblər

iki ölkənin xalqı və sənayesi, eləcə də qlobal iqtisadiyyat üçün yaxşı xəbər olduğunu vurğulayıb. Əməkdaşlığın ikitərəfli bir proses olduğunu deyən Si Cinpin Çin və ABŞ arasında iqtisadi və ticarət əlaqələrinin sabitliyinin əməkdaşlıq məsələlərinin əhatə dairəsinin genişləndirilməsindən və problemli məsələlərin siyahısının azaldılmasından asılı olduğunu vurğulayıb. Qeyd edək ki, sentyabrın 23-də iki ölkənin iqtisadi nümayəndə heyətləri arasında keçirilən danışıqlarda tərəflər 10 noyabrda müddəti bitən müvəqqəti müqavilənin 2027-ci ilin yanvar ayına qədər uzadılması barədə razılığa gəliblər.

## Tayvan: Çinin mövqeyi dəyişməzdir

Ölkəsinin Tayvanla bağlı mövqeyini bir daha təkrarlayan Si Cinpin məsələnin Çinin milli birliyi və ərazi bütövlüyü ilə bağlı olduğunu vurğulayıb və Vaşinqtonu bu məsələdə düzgün mövqe tutmağa, Çin ilə ABŞ arasında strateji əməkdaşlığın təməlini və ikitərəfli münasibətlərin inkişafını qorumağa çağırıb. Qeyd edək ki, "Vahid Çin" prinsipini vurğulayan Pekin Tayvanın diplomatik münasibətlər qurmasına, BMT-də və digər beynəlxalq təşkilatlarda təmsil olunmasına qarşı çıxır və Çini tanıyan ölkələrdən Tayvanla diplomatik münasibətlər qurmamağı tələb edir.

## Qərbdən Şərqə "mülayim axın"...

Siyasi mütəxəssislər Si Cinpinin səfərinin Amerikanın Çinə münasibətinin daha müsbət hala gəldiyi bir vaxta təsadüf etdiyi qənaətindədirlər. Çikaqo Qlobal İşlər Şurasının son sorğusu göstərib ki, amerikalıların 41 faizi Çini ABŞ üçün təhlükə hesab edir - 2022-ci ildəki 52 faiz göstəricidən 11 faiz aşağıdır. Amerikalıların yarıdan çoxu, 57 faizi ABŞ-ın Pekinlə əməkdaşlıq etməli və əlaqə qurmalı olduğuna inanır. Xüsusilə, bu rəqəm ABŞ-ın siyasi spektrində ardıcıldır. Respublikaçıların 57 faizi həm mülayim münasibətə, həm də liberal demokratların əksəriyyəti kimi əməkdaşlığa üstünlük verir.

## Süni İntellekt: rəqabət, yoxsa əməkdaşlıq...

Si Cinpin qeyd edib ki, süni intellekt sahəsində aparıcı güclər olan Çin və ABŞ bu sahədə nəinki rəqabət apara, həm də əməkdaşlıq edə bilərlər: "Bir-birinə qarşı müdafiə mövqeyi tutmaq əvəzinə, hər iki tərəf öz güclü tərəflərindən istifadə edə bilər. Biz süni intellektlə bağlı dialoqumuzu davam etdirə, onun riskləri və faydaları barədə fikir mübadiləsi apara və onun sui-istifadəsinin qarşısını birgə ala bilərik."

Çin lideri süni intellekt texnologiyaları üzərində insan nəzarətinin saxlanılmasının, insan mərkəzli və xeyirxah yanaşmaya riayət edilməsinin və süni intellektdən bəşəriyyətin tərəqqisi naminə istifadənin təmin edilməsinin vacibliyini vurğulayıb.

Gözlənildiyi kimi, iki liderin görüşündə süni intellekt təhlükəsizliyi əsas mövzulardan biri olub. İki ölkənin süni intellektdən yarana biləcək risklər barədə məlumat mübadiləsini və potensial təhdidlər barədə erkən xəbərdarlıq etməyi əhatə edən "Süni intellekt dialoqu"na başlaması gözlənilir. Lakin yanaşmalardakı fərqlər indiyə qədər dialoqun başlanmasına mane olub: ABŞ süni intellekt təhlükəsizlik risklərinin idarə olunmasına diqqət yetirir, Çin isə daha əhatəli qlobal süni intellekt idarəetmə çərçivəsini müdafiə edir.

## Yaxın Şərq: Pekin sülhün tərəfdarıdır

İki lider həmçinin Yaxın Şərq, Ukrayna və Koreya yarımadasındakı vəziyyət də daxil olmaqla beynəlxalq və regional böhranlar barədə fikir mübadiləsi aparıblar. Si Cinpin bildirib ki, Çin ABŞ və İranın fikir ayrılıqlarını dialoq və danışıqlar yolu ilə həll etməyə, nüvə məsələsi də daxil olmaqla hərtərəfli razılığa gəlməyə və mümkün qədər tez sülhə nail olmağa çağırış edib: "Çin bütün ölkələrin suverenliyinə və təhlükəsizliyinə hörməti müdafiə edir. Biz həmişə gərginliyin azaldılmasında konstruktiv rol oynayırıq və bütün tərəfləri sülh yoluna sadiq qalmağa və danışıqların impulsunu qorumağa çağırırıq".

## "Biz heç vaxt daha yaxşı yola getməmişik"

Çin rəhbəri Si Cinpinin Vaşinqtona səfəri münasibətilə Ağ Evdə keçirilən dövlət qəbulunda ABŞ prezidenti Donald Tramp ABŞ və Çin üçün ahəngdar və dinc gələcəyə inamını ifadə edib. O qeyd edib ki, "Xalqlarımızın gələcəyi ahəngdar, dinc və firavan olsun". Çıxışı zamanı Tramp həmçinin deyib: "Ölkələrimizin liderləri olaraq, Si Cinpin və mən başa düşürük ki, biz fərqli sistemləri təmsil edirik, lakin xalqlarımız arasındakı əlaqələr güclü olaraq qalır və biz heç vaxt daha yaxşı yola getməmişik". Hər iki lider görüşü iki ölkə arasındakı münasibətlərdə yeni bir fəslin başlanğıcı adlandırıb. Tramp həmçinin ABŞ-Çin münasibətlərinin tarixini qeyd edib və Si Cinpinə ABŞ-ın simvolu olan qartal heykəli hədiyyə edib. O hədiyyəsini "Amerikanın azad və uca ruhunun" simvolu adlandırıb. O, heykəlin dizaynında birinci xanım Melaniya Trampla birlikdə iştirak etdiyini bildirib. Daha sonra Tramp Si Cinpini və həyat yoldaşını hazırda tikilməkdə olan Ağ Evin Bal Zalına ilk daxil olmağa dəvət edib. Amerika prezidentinin sözlərinə görə, layihə təxminən bir ilə başa çatacaq. Si Cinpin ev sahiblərinə ona və həyat yoldaşına göstərilən qonaqpərvərliyə görə təşəkkür edərək, onlara "müstəsna qayğı və diqqət" göstərildiyini və özlərini evdəki kimi hiss etdiklərini qeyd edib. O, iki liderin ikitərəfli əlaqələr vasitəsilə "tarix yaratdıqlarını" bildirib və Çin ilə ABŞ arasında strateji sabitliyə əsaslanan münasibətlər qurmaq üçün razılaşma elan edib. "Biz böyük güclərin birgəyaşayışına yeni bir yanaşma axtarmalıyıq", - deyə Si Cinpin bildirib.

Qeyd edək ki, qəbulda qonaqlar arasında Apple-ın baş direktoru Tim Kuk, OpenAI-ın baş direktoru Sem Altman, Google-ın baş direktoru Sundar Piçai, Amazon-un qurucusu Ceff Bezos və Nvidia-nın baş direktoru Censen Huanq da yer alıb. Kuk, Huanq və Elon Mask Tramp və Si Cinpinlə eyni Masada əyləşiblər. Şam yeməyində ABŞ Dövlət Katibi Marko Rubio, Müdafiə Naziri Pit Heqset, Trampın Kabinetinin üzvləri iştirak ediblər. Qonaqlar arasında sosial media baş direktoru Mark Zuckerberg və TikTok-da pay sahibi olan milyarder Jeff Yass da olub.

*P.İSMAYILOV*

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



## Şənbə üçün nəzm



hücum çəkib süvaritək
yıxım bu sərt divarı tək...
yuxum qaçır fəraritək
bu savaşın arasında...

kirpiklərin oxdur, gülüm,
düz nişan al, vermə zülm...
bilirəm, yerləşir ölüm
gözlə qaşın arasında...



analar oğlunu baş-göz elədi,
ana, nə durmusan? əl-ayaq elə...
qızımız sizindir deyən xalaya
dur dil-ağız elə, səs-soraq elə...

gözaltı etmişəm o qızı, ana,
göz üstə qaşın var demərəm ona...
öncə göz-qaş elə qız anasına,
sir-sifət edərsə, qaş-qabaq elə...



yox e, mən o qıza yadam, alınmaz,
o dəniz, mən isə odam, alınmaz...
bu məndən qırmızı adam alınmaz,
Allah, özün məni üzüağ elə...

acı çəkilsə də, acı çəkilməz,
taleyim dan yeri ola, sökülməz...
ay uşaq, səmadan ulduz tökülməz,
az bu göy üzünü daşqalaq elə...



qapılma bu dərdə, gəldi-gedərdi,
bu səhnə, bu pərdə gəldi-gedərdi.
elə bu şəhər də gəldi-gedərdi,
mən qonaq gəlmişəm bu qonaq elə...

***

fənər tut hər kəsin üzünə bir-bir,
aman ver, axtarım tapım özümü...
ömür vaxtı deyil bu darmacalda
zaman ver, axtarım tapım özümü...

*Ceyhun Ötkəm*

yox ikən var oldum, var isəm, yoxam,
özümə çatmağa atılmış oxam,
qorxuram səhv düşəm, yadımdan çıxam,
nişan ver, axtarım tapım özümü...

ən üstdə bir ev var-qapısı altda,
durmuşam o evin çatısı altda...
itmişəm alnımın yazısı altda,
pozan ver, axtarım tapım özümü...

***

mən bir günəbaxan olsam günəbaxanlar
cərgəsində,
pozaram bu qayidəni...
sənə baxaram...
pozuram bu qafiyəni,
mən günəbaxan deyiləm,
“sənəbaxanam”...

insanın yerəbaxanı
kişinin falabaxanı,
qadının qarayaxanı
xəstənin ələbaxanı,
ürəyin sözəbaxanı aciz olur...

mən nə yerəbaxanam,
nə günəbaxan...
mən sənəbaxanam...
sən günəşdən gözəlsən,
sən günəşdən günəşsən!

mən nə dostun başa,
nə düşmənin ayağa baxanıyam...
baxışım bayquş baxışının kəskinliyi...
özüm gözdən uzaq xarabaxanayam...

mən nə itin ulduza hürəni,
nə yetimin gözəgirəni,
nə də insanın uzaqgörəniyəm...
sevginin gözünün kor olduğu dünyanın
kor bucağından kor-peşman,
lal-peşman sənə baxıram...

... məni el içində qınadıbsa da
yaramı əliylə qanadıbsa da
atıb gedibsə də, unudubsa da
İlahi, sən özün qoru bu qızı...

susmuşam dənizə su dilində mən
bilirəm suların bu dilin də mən...
durmuşam eşqimin sahilində mən
aparır əğyarın toru bu qızı...
İlahi, sən özün qoru bu qızı...

qoy onun bəxtinin çırağı yansın,
yanan bir ürəkdir uzağı, yansın...
közərən közümlə ocağı yansın
isitsin könlümün qoru bu qızı...
İlahi, sən özün qoru bu qızı...

eybi yox, dərdindən can xəstə qalsın
qalansın dərdlərim üst-üstə qalsın.
İlahi, qoy cavan, növrəstə qalsın,
çıxarma qarşıma qarı bu qızı...
İlahi, sən özün qoru bu qızı...

mənə bir dərd yetir, dərman olmasın,
dərdimi tapmağa loğman olmasın...
məni atdığına peşman olmasın
Özün haqlı çıxart barı bu qızı..
İlahi, nə olar, qoru bu qızı...

***

bir quruyam, tək yanıram
bunca yaşın arasında...
kül oluram neçə-neçə
yad baxışın arasında...

qoymuşdum qəlbimin qəsdən
bir daş altdan, bir daş üstdən...
necə girdin qəlbimə sən
iki daşın arasında?!

dərd yeddi başlı əjdaha,
hamısı gəlib iştaha,
başım itirmişəm daha,
yeddi başın arasında...

# Mədəniyyət dronları

*Başqa sivilizasiyalara təkliflər paketi göndəriləcək.*

Cavab nə olursa-olsun, təkliflər bir neçə dəfə irəli sürüləcək. Onlara Mədəniyyət təklif ediləcək. Qəbul etməyənlər uzun prosedurlardan sonra cəzalandırılacaq.

Maraqlıdır ki, hələlik bu mesajlar Ədəbiyyat vasitəsilə edilir. Ədəbiyyat indidən öz dronlarını beyinlərə yerləşdirir, sabah isə bu dronlar sözün həqiqi mənasında uçacaq. Hələlik fantastika janrı ilə istehsal edilən dronların üzərinə müxtəlif etiketlər yapışdırılır - yazıçının adı, ölkəsi, dəyərləri və sair. Sonra isə başqa cür olacaq, adını Mədəniyyət qoyub umumiləşdirilmiş halda, sosial təkliflər paketi ilə birlikdə özünü yaxşı aparmayan sivilizasiyalarla müvafiq əlaqələr qurulacaq.

Bəs o Mədəniyyət paketinin içində göndərilən Ədəbiyyat necə olacaq? Ümumiyyətlə, başqa sivilizasiyalara Ədəbiyyat təklif ediləcəkmi? Bir vaxtlar kosmosa musiqi göndərirdilər. Ümid edirdilər ki, əvəzində ən azı radiodalğa alacaqlar. Hələ də bir xəbər çıxmayıb.

İndi isə məsələ tamam başqa cürdür. İş orasındadır ki, başqa sivilizasiyaları axtarmaq lazım olmayacaq. Onlar haradasa buralarda - bizim qalaktikada fırlanacaqlar. Özü də İlon Maskın mütaliə menyusunda olan əsas yazıçı - şotlandiyalı İen Benks (1954-2013) bunu deməyə çalışıb.

Benks solçu, ateist, İraq mübaribəsi zamanı öz pasportunu cırıb o vaxtkı baş nazir Toni Bleyerə göndərən adamdır. Onun elmi-fantastik əsərlərinin əksəriyyəti humanoid varlıqların supersivilizasiyalardakı həyatı və yaşayışı barədədir. Həmin əsərlər “Mədəniyyət” adlı seriyada toplanaraq silsilə təşkil edir. Deməli, bu əsərlərdə Sİ (Süni İntellekt) insan zəkasını çoxdan üstələyib, ağıllı ulduz gəmiləri, dronlar, öz ağıl dəryası olan orbital sistemlər yan-yana ömür sürür. Və onlar bioloji cəhətdən təkamül etmiş ağıllı irqlərin nümayəndələri ilə birlikdə yaşayır. İnsan ömrü sonsuzadək uzadılıb, nə desən, əlçatandır. Lakin bütün bunlara baxmayaraq problemlər yaranır. Məsələn, düşmən mədəniyyətlərlə qarşılıqlı əlaqələr qurulur, əgər onlar sivilizasiyanın həyat tərzinə mane olmaq istəyirlərsə, ilk növbədə o gavurlara dronlar vasitəsilə Mədəniyyət Paketindən ibarət təkliflər göndərilir. Bir sözlə, Mədəniyyət təklif edilir...



*Məqsəd Nur*

İlon Mask deyir ki, gələcək belə olmalıdır, təxminən bu əsərlərdəki kimi. O, həm də təklif edir ki, bu müəllifi yaxşıca-yaxşıca oxuyub başa çıxaq.

Ədəbiyyat təhdid edə bilməz. Onun yarağı-yasağı yoxdur. Amma Mədəniyyətin içində hər şey ola bilər. Əcəba, o Mədəniyyət dronlarında Kommunizm təklifləri olmasın?

# Avropa dilləri günüdür



2001-ci ildən başlayaraq hər ilin bu günü Avropa Dilləri Günü (European Day of Languages) kimi qeyd edilir. Əlamətdar tarixin əsas məqsədi dil müxtəlifliyini, hər avropalının ikidilliliyini, dünyada müxtəlif dillərin tədrisini və öyrənilməsini dəstəkləməkdir.

Əlamətdar tarix 2001-ci ildə Avropa dilləri ilində Avropa Birliyinin dəstəyi ilə Avropa Şurası tərəfindən elan edilib.

Dünyada ən azı bir xarici dildə sərbəst danışan insanların sayı gündən-günə artmaqdadır. Xarıcı dillərin bilgisi fenomeni çoxdandır ki, öyrənilir. Hər sahədə olduğu kimi, xarici dillərin öyrənilməsi də istedad tələb edir. Hələ XVIII-XIX əsrlərdə cəmiyyət içində fransız, alman, latın dillərində sözlər işlətməklə, biliklərini nümayiş etdirmək dəbdə idi. Ən azı bir xarici dil bilmək norma hesab olunub. XXI əsrdə isə UNESCO “Dilləri ömür boyu öyrənirik” şüarını irəli sürüb.

Dillərin qorunub saxlanılması, xüsusilə kiçik dillərə həssaslıqla yanaşılması Avropa Birliyinin rəsmi dil siyasətinin mühüm istiqamətlərindəndir. Buna nail olmaq üçün kamil yaşlarında insanların birdən artıq dillərə yiyələnməsinin vacibliyi xüsusilə vurğulanır.

Avropa ərazisində bu gün 225 avtoxton dil mövcuddur, onlardan yarıdan çoxu artıq məhv olub, ya da dil birliyinin azlığı üzündən tədricən asssimilyasiyaya uğrayaraq unudulmaq təhlükəsi (məsələn, irland və digər kelt dilləri kimi) qarşısındadır. Digər tərəfdən XX əsrin ikinci yarısından başlayaraq Avropa dillərinin ümumi təsviri müxtəliflik əldə edib. Bu isə Avropa ölkələrinə, xüsusilə onların paytaxtlarına kütləvi iqtisadi və siyasi köç nəticəsində bir çox dünya xalqlarının dillərinin eşidilməsi ilə əlaqədardır.

Hazırda Avropa Birliyinin Avropa institutlarında 24 dildən bərabər hüquqlu istifadə edilir: alman, bolqar, çex, Danimarka, eston, fin, fransız, ingilis, irland, ispan, İsveç, italyan, latış, Litva, macar, Malta, Niderland, polyak, portuqal, rumın, slovak, sloven, xorvat, yunan dilləri.

Avropa Şurasının rəsmi orqanları tərəfindən qəbul edilən qərarlar bütün rəsmi dillərə tərcümə edilir və AB vətəndaşları Avropa Şurasının orqanlarına müraciət edib, istənilən rəsmi dillərdən birində sorğularına cavab ala bilərlər.

Bu gün Avropa ölkələrində ənənəvi olaraq müxtəlif tədbirlər - konfranslar, seminarlar, mühazirələr, tədris ocaqlarında açıq dərslər, konsert və sərgilər və s. maraqlı və maarifləndirici proqramlar təşkil edilir.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4446**
**Sifariş: 1242**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova